# 9 Noyabr Dövlət Bayrağı Günüdür


AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

9 NOYABR 2018-ci il CÜMƏ № 251 (6284) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ


## Kambocanın Kralı Əlahəzrət Norodom Sihamoniyə

Əlahəzrət,

Kamboca Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Kamboca xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 noyabr 2018-ci il.**

## Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi"nin 5.3-cü bəndinə uyğun olaraq **qərara alıram:**

**1.** Aşağıdakı şəxslər Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvləri təyin edilsinlər:

Abdullayev Kamal Mehdi oğlu
Əbdüləziz bin Osman əl-Tüveycri
Əliyeva Leyla İlham qızı
Əlizadə Akif Ağamehdi oğlu
Əlizadə Firəngiz Əliağa qızı
Koiçiro Matsuuro
Nəcəfov Etibar Əli oğlu
Salahov Tahir Teymur oğlu
Şarovski Aleksandr Yakovleviç
Zabelin Mixail Yuryeviç.

**2.** "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 noyabr tarixli 877 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, N11, maddə 1479) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 noyabr 2018-ci il.**

## M.Ə.Nəbiyevə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Metropoliteninin tikintisində xidmətlərinə görə Məzahir Əbilşah oğlu Nəbiyevə "Əməkdar mühəndis" fəxri adı verilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 noyabr 2018-ci il.**

## Ş.V.Eyubova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Bakı Metropoliteninin tikintisində xidmətlərinə görə Şaiq Veyis oğlu Eyubova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 noyabr 2018-ci il.**

## Bakı Metropoliteninin bir qrup işçisinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Metropoliteninin tikintisində və istismarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdusəmədov Qurban Əli oğlu
Əmrahov Rasim Zeyqəm oğlu
Mehtiyev Rafail Mehti oğlu
Mirzəliyev Əbülfəz Bağman oğlu
Tahirov Xaləddin Şərif oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 noyabr 2018-ci il.**

## Azərbaycan Respublikasında səhiyyə sahəsinin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması sözügedən istiqamətdə gerçəkləşən siyasətin əsas prioritetlərindəndir.

2004-2017-ci illər ərzində respublika ərazisində 600-dən çox səhiyyə müəssisəsi tikilmiş, əsaslı təmir olunmuş və müasir tibbi avadanlıqla təchiz edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Respublika Talassemiya Mərkəzinin yeni nəsil sekvenləşdirmə sistemi ilə təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin 1,8 milyon (bir milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 noyabr 2018-ci il.**

## "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, N 11, maddə 1832; 2018, N 2, maddə 182, N 3, maddə 420) 9-cu hissəsində ikinci halda "Tərcümə Mərkəzi" sözlərindən əvvəl "Azərbaycan Dövlət" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*2.1.* Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*2.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*2.4.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 noyabr 2018-ci il.**

## "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı tədbirlər və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

*1.1.* "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 3.5-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini mərkəzi və yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

*1.2.* həmin Qanunun 17-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini infrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına münasibətdə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;

*1.3.* həmin Qanunun 30.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həyata keçirir.

**2.** "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, N7 (I kitab), maddə 1499) aşağıdakı dəyişikliklər edilsin:

*2.1.* 2.4-cü bəndə "23.1-ci," sözlərindən sonra "30.3-cü," sözləri əlavə edilsin;

*2.2.* 2.7-ci bəndə "Qanunun" sözündən sonra "3.5-ci maddəsində (ikinci halda)," sözləri əlavə edilsin;

*2.3.* aşağıdakı məzmunda 2.8-1-ci bənd əlavə edilsin:

"2.8-1. həmin Qanunun 17-ci maddəsində (ikinci halda) nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini infrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına münasibətdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına münasibətdə yerli icra hakimiyyəti orqanları həyata keçirirlər;".

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*3.1.* üç ay müddətində:

3.1.1. Azərbaycan Respublikası Prezidentinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.1.3. "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq, infrastruktur obyektlərinin və yaşayış binalarının layihələndirilməsi və tikintisi zamanı əlilliyi olan şəxslərin tələbatının nəzərə alınmasına, istismarda olan infrastruktur obyektlərinin və yaşayış binalarının əlilliyi olan şəxslərin istifadəsi üçün ağlabatan uyğunlaşdırılmasına nəzarət qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

*3.2.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının bu Fərmana uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*3.3.* bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların bu Fərmana uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 noyabr 2018-ci il.**



JEWISH JOURNAL

Pittsburgh Tragedy: Azerbaijan Extends Solidarity and Hope

BY NASIMI AGHAYEV | NOV 7, 2018 | FIRST PERSON

When I learned about the tragedy in Pittsburgh, I felt profoundly sad. Eleven Jews had just been murdered by a depraved anti-Semite: their lives ripped away in a sacred space, a synagogue, on the Jewish day of rest and prayer. For those lives taken, and for the mourners reeling from this tragedy, that Shabbat is truly eternal, and one man's act of hateful violence is unconscionable and unforgivable.

In my homeland of Azerbaijan, messages and sentiments of solidarity and prayers for the victims and their loved ones have been pouring out from every corner. In a letter addressed to President Donald Trump, Azerbaijan's President Ilham Aliyev wrote: "I was deeply saddened by the news of casualties as a result of an armed attack at a synagogue in the city of Pittsburgh. On the occasion of this tragic event, on my own behalf and on behalf of the people of Azerbaijan, I extend my deepest condolences to you, the families and loved ones of those who died, and all the people of the United States."

As consul general of Azerbaijan to the Western United States, I join my nation –

## "Jewish Journal" qəzetində Azərbaycanın tolerantlıq ənənələrindən bəhs edən məqalə dərc olunub

**Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevin irqçiliyə, ksenofobiyaya və dini-etnik dözümsüzlüyə qarşı yazdığı məqaləsi ABŞ-ın Los-Ancelesdə nəşr olunan "Jewish Journal" qəzetində dərc edilib.**

Məqalədə baş konsul bu yaxınlarda ABŞ-ın Pittsburq şəhərində yerləşən sinaqoqda törədilmiş qətliama toxunub, bu kimi cinayətlərin kökündə irqçilik, dini-etnik nifrət və dözümsüzlüyün dayandığını, belə mənfi meyillərin bütün insanlıq üçün təhlükəli olduğunu qeyd edib. N.Ağayev bu faciədən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Trampa məktub ünvanlayaraq, bütün Amerika xalqına və həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verdiyini bildirib.

Azərbaycanda yüksək tolerantlıq və multikulturalizm ənənələrinin mövcud olduğunu qeyd edən baş konsul məqalədə ölkəmizdə qədim dövrlərdən etibarən müsəlmanlar, xristianlar və yəhudilər də daxil olmaqla, müxtəlif etnik və dini icmalar arasında güclü tolerantlıq və qarşılıqlı ehtiram ənənələrinin olduğunu vurğulayıb.

Dünyanın müxtəlif bölgələrində öz dini-etnik kimliklərinə görə müsəlman və xristianların qətlə yetirildiklərini qeyd edən N.Ağayev Azərbaycanın da irqçiliyin acı nəticələrindən əziyyət çəkmiş ölkə olduğunu bildirib, Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf rayonlarında, xüsusilə Xocalıda dinc insanların məhz azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetirildiklərini diqqətə çatdırıb. Baş konsul, həmçinin ərazilərimizin işğalçı qüvvələrə qarşı müdafiəsində bir çox müsəlman və yəhudi azərbaycanlıların çiyin-çiyinə döyüşərək həlak oduqlarını xatırladıb.

**AZƏRTAC**

# Ədliyyə və məhkəmə infrastrukturu müasirləşdirilir

*Zaqatala rayonunda ədliyyə orqanları və məhkəmə üçün yeni inşa edilən müasir binanın açılışı olub*





**Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda aparılan məhkəmə-hüquq islahatları çərçivəsində ədliyyə və məhkəmə fəaliyyətinin müasirləşdirilməsinə, əhalinin müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilir, bu məqsədlə müasir infrastruktur yaradılır.**

Dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində son illər paytaxtda və bölgələrdə müasirliyi ilə fərqlənən və ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş yeni ədliyyə və məhkəmə bina və kompleksləri tikilib istifadəyə verilib, o cümlədən hazırda 7 məhkəmə üçün yeni binaların intensiv inşası aparılır. Bir çox bina və komplekslərin açılışlarında Prezident İlham Əliyev şəxsən iştirak edib, müvafiq tövsiyə və göstərişlər verib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, dövlət büdcəsi hesabına Zaqatala rayonunda ədliyyə orqanları və məhkəmə üçün yeni inşa edilən müasir binanın açılışı olub.

Tədbirdən əvvəl ümummilli lider Heydər Əliyevin Zaqatala rayonundakı abidəsi ziyarət olunub, xatirəsi dərin ehtiramla yad edilib.

Açılış mərasimində ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, rayon rəsmiləri, hakimlər, hüquq-mühafizə orqanlarının rəhbərləri, ədliyyə işçiləri, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Tanışlıq zamanı bildirilib ki, ümumi sahəsi 2300 kvadratmetr olan bina üç mərtəbədən və zirzəmi qatından ibarətdir. Yeni tikilmiş digər məhkəmə binalarında olduğu kimi, burada fəaliyyət göstərən rayon məhkəməsi də ictimai və inzibati zonalara bölünməklə müasir İKT ilə təchiz olunub. Binada Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastruktur yaradılıb, o cümlədən videokonfransların, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarə olunmasına xidmət edən və audio-videoyazılışları aparan sistem və digər avadanlıq quraşdırılıb. Burada, həmçinin konfrans və iclas zalları, arxiv və digər xidməti otaqlar mövcuddur.

Müasir texnologiyalarla təchiz olunmuş binada Zaqatala rayonu icra və probasiya, qeydiyyat şöbələrinin fəaliyyəti, o cümlədən təntənəli nikah mərasimlərinin keçirilməsi üçün hər cür şərait yaradılıb.

Mərasimdə çıxış edən ədliyyə naziri ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə respublikamızın sosial-iqtisadi tərəqqisinin təmin olunduğunu vurğulayıb, ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar və yeniliklər barədə məlumat verib. Bildirilib ki, dövlətimizin başçısının tapşırıqlarına əsasən ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə aparılan islahatlar nəticəsində məhkəmə sistemi təkmilləşdirilib, yeni məhkəmələr və məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanları təsis olunub, hakimlərin Avropada ən şəffaf seçim qaydaları müəyyən edilib.

Nazir ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən tədbirlərin bu sahədə fəaliyyətin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanlarını artırmaqla əlçatanlığın asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına xidmət edəcəyini deyib.

Dövlət Bayrağı Gününün qeyd olunduğu bu ərəfədə istifadəyə verilən binada, həmçinin qabaqcıl İKT-nin, elektron informasiya sistemlərinin tətbiqi üçün lazımi şəraitin yaradıldığı bildirilərək, onların fəaliyyətdə aşkarlığın təmin edilməsinə, süründürməçiliyin qarşısının alınmasına böyük töhfə verəcəyi vurğulanıb.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Şəki Apellyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov və digər natiqlər mərasimdə çıxış edərək respublikamızın hərtərəfli tərəqqisinə, ədalət mühakiməsinin səmərəliliyinə, ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsinə verdiyi müstəsna əhəmiyyətə və xüsusi qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

**AZƏRTAC**

# Amalya Əliş qızı Pənahova



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan teatrı və kino sənətinin tanınmış nümayəndəsi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti, sənətşünaslıq üzrə elmlər doktoru, professor Amalya Əliş qızı Pənahova 2018-ci il noyabr ayının 8-də ömrünün 74-cü ilində vəfat etmişdir.

Amalya Pənahova 1945-ci il iyunun 15-də Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1962-1966-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində ali təhsil almışdır.

1964-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul edilən Amalya Pənahova burada 1992-ci ilədək səhnə fəaliyyətini davam etdirmişdir. O, 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaratmış və ömrünün sonunadək həmin teatra rəhbərlik etmişdir.

Zəngin yaradıcılıq axtarışları sayəsində milli teatr və kino sənətinə dəyərli töhfələr vermiş Amalya Pənahova müasir Azərbaycan mədəniyyətində özünəməxsus layiqli yer tutur. Azərbaycan teatrının parlaq ənənələri zəminində formalaşan və bu irsə həmişə sadiq qalan sənətkar gözəl ifa tərzi və yüksək səhnə mədəniyyəti ilə qısa müddət ərzində teatr və kino həvəskarlarının rəğbətini qazanmış, sənətsevərlərin qəlbinə yol tapmışdır. İfadəli səs tembrinə malik istedadlı aktrisanın milli və dünya dramaturji irsinə müraciət edərək teatr səhnəsində böyük məharətlə canlandırdığı çox sayda yaddaqalan obrazlar öz təbiiliyi, həyatiliyi və lirik-psixoloji dərinliyi ilə səciyyələnir. Onun sənətkar olaraq müasirlərin daxili aləminə peşəkarlıqla nüfuz etmək bacarığı mütəxəssislər tərəfindən təqdirlə qarşılanmışdır.

Amalya Pənahovanın televiziya tamaşalarında yaratdığı unudulmaz personajlar milli televiziyanın fondunda diqqətəlayiq sənət nümunələri kimi qorunub saxlanmaqdadır. Kinofilmlərdəki müxtəlif səpkili rolları aktrisanın bu sənətin incəliklərinə dərindən bələd olduğunu aydın təcəssüm etdirir. Amalya xanımın ekran həyatı bəxş etdiyi dolğun və bitkin surətlər sırasında tarixi-mədəni keçmişimizlə bağlı qadın obrazları Azərbaycan kinematoqrafiyasının nailiyyətlərindən sayılır.

Teatr sənətini pedaqoji fəaliyyətlə uğurla əlaqələndirən Amalya Pənahova respublikada gənc aktyorların yetişdirilməsi üçün böyük əmək sərf etmişdir. O, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmiş, ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.

Amalya Pənahovanın Azərbaycan mədəniyyətinin inkişafı sahəsində göstərdiyi xidmətlər lazımınca qiymətləndirilmişdir. O, bir sıra mükafatlara və fəxri adlara layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından "Şöhrət" və "Şərəf" ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Tanınmış sənətkar, teatr təşkilatçısı, pedaqoq və səmimi insan Amalya Pənahovanın xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**İlham Əliyev, Mehriban Əliyeva, Novruz Məmmədov, Oqtay Əsədov, Ramiz Mehdiyev, Əli Əhmədov, Fərəh Əliyeva, Əbülfəs Qarayev, Ceyhun Bayramov, Anar Rzayev, Eldar Quliyev, Azər Paşa Nemətov, Rasim Balayev, Şəfiqə Məmmədova, Hacı İsmayılov, Nurəddin Quliyev**

*Mərhumun cənazəsi vidalaşmaq üçün 2018-ci il noyabrın 9-da saat 11.00-dan 13.00-dək Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binasında qoyulacaqdır (Füzuli meydanı, 1).*

# Müdafiə naziri: Komanda-qərargah hərb oyunlarında əsas diqqət kosmik texnologiyaların tətbiqinə yönəldilməlidir

**Noyabrın 8-də müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir müavinlərinin, qoşun növləri komandanlarının, nazirliyin baş idarə, idarə, xidmət rəislərinin, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də videobağlantı vasitəsilə cəlb olunublar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları rəhbər heyətə çatdıran nazir bundan irəli gələn məsələlərin qoşunlarda vaxtında və daha keyfiyyətli icrasını təmin etmək barədə konkret göstəriş verib.

Müdafiə naziri keçiriləcək komanda-qərargah hərb oyunlarında əsas diqqətin ən yeni, o cümlədən kosmik texnologiyaların tətbiqi ilə qoşunların fasiləsiz idarəedilməsi və qarşılıqlı fəaliyyətin düzgün təşkilinə yönəldilməsini tapşırıb.

Cəbhə xəttindəki vəziyyətə toxunan general-polkovnik Z.Həsənov qoşunların döyüş qabiliyyətinin, şəxsi heyətin döyüşə hazırlıq səviyyəsinin daha da yüksəldilməsinə, nizam-intizama, döyüş növbətçiliyinin təşkili və aparılmasında sayıqlığının artırılmasına, eləcə də qış mövsümünə hazırlıq işlərinin yekunlaşdırılmasına xüsusi diqqətin yetirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü və Konstitusiya Günü münasibətilə şəxsi heyəti təbrik edən müdafiə naziri bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü, eləcə də andiçmə mərasimlərinin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıqlar verib.

**AZƏRTAC**

# Çində daha bir "Azərbaycan Şərab Evi" açılıb






**Noyabrın 7-də Şanxayda "Azərbaycan Şərab Evi" açılıb. Bu, Azərbaycanın Çindəki sayca ikinci Şərab Evidir.**

AZƏRTAC xəbər verir ki, Çinin ilk və ən böyük ticarət zonası olan Şanxay Vayqaoçao Beynəlxalq Ticarət Əməliyyat Mərkəzində (İTOC) yerləşən "Azərbaycan Şərab Evi"ndə məhsullarımızın sərgisi, topdan və pərakəndə satışı, habelə dequstasiyası həyata keçiriləcək. "Azərbaycan Şərab Evi"ndə yerli şirkətlərimizin istehsal etdiyi 120 çeşiddən çox üzüm və meyvə şərabları, spirtli içkilər, meyvə distillatları və s. nümayiş olunur.

"Azərbaycan Şərab Evi"nin açılışına həsr olunmuş tədbirdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-Çin əlaqələrinin uğurlu inkişafının məmnunluq doğurduğunu, ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsində hər iki dövlət başçısının siyasi iradəsinin, yüksək səviyyəli səfərlərin, əldə edilmiş razılaşmaların mühüm əhəmiyyətini vurğulayıb. Qeyd olunub ki, Azərbaycan Çinlə iqtisadi əlaqələrin genişləndirilməsinə, qarşılıqlı faydalı birgə layihələrin həyata keçirilməsinə böyük önəm verir. Ticarət sahəsində əməkdaşlığın Azərbaycan-Çin iqtisadi əlaqələrinin mühüm istiqamətlərindən olduğunu diqqətə çatdıran Şahin Mustafayev 2017-ci ildə Azərbaycanın Çin ilə ticarət dövriyyəsinin 20 faiz artdığını və ölkəmizin xarici ticarət dövriyyəsində Çinin 4-cü yerdə olduğunu bildirib. İki ölkə arasında ticarət əməkdaşlığının daha da genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir, Azərbaycanın Çində Ticarət Nümayəndəliyi fəaliyyət göstərir, Azərbaycan məhsullarının Çində tanıdılması, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə Honq-Konq, Quancou, Şanxay və Urumçi şəhərlərinə ixrac missiyaları təşkil edilib, Lucouda Azərbaycanın Ticarət, Urumçidə Şərab evləri açılıb, Azərbaycan istehsalı olan məhsullar Çində keçirilən müxtəlif beynəlxalq sərgilərdə nümayiş olunur. Nazir Şahin Mustafayev Azərbaycan şərablarının Çinə ixracının artırılacağını, yerli şərablarımızın xüsusi dad və yüksək keyfiyyəti ilə seçildiyini vurğulayıb, bu ilin iyununda Şanxayda keçirilmiş "İnternational Wine Challenge" müsabiqəsində Azərbaycan şərablarının yüksək mükafata layiq görüldüyünü qeyd edib. Bildirilib ki, Azərbaycanın xarici ölkədə ilk Şərab Evi də məhz bu ilin sentyabrında Çində - Urumçidə açılıb. Çinin digər bölgələrində də Azərbaycan Şərab və Ticarət evlərinin yaradılması nəzərdə tutulur.

Şanxay "Vayqaoçao Group Co. Ltd" şirkətinin baş direktorunun müavini Can Hao çıxış edərək vurğulayıb ki, Azərbaycan-Çin münasibətləri hazırda müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edir. Şanxayda açılan "Azərbaycan Şərab Evi" də iqtisadi-ticarət əlaqələrinin inkişafına töhfəsini verməklə yanaşı, Azərbaycan məhsullarının Çin alıcılarına tanıdılması baxımından əhəmiyyətli rol oynayacaq.

Sonra tədbir iştirakçıları "Azərbaycan Şərab Evi" ilə tanış olublar. Şərab evində məhsulları nümayiş olunan şirkətlərin təmsilçiləri şərab və spirtli içkilər barədə məlumat veriblər.

Azərbaycan nümayəndə heyəti "Direct İmported Goods" ("DİG") marketlər şəbəkəsində də olub. Qeyd edək ki, artıq Şanxay Vayqaoçao Beynəlxalq Ticarət Əməliyyat Mərkəzinin "DİG" marketlər şəbəkəsində Azərbaycan şərablarının və digər spirtli içkilərin satışına başlanıb.

Həmin gün Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev Şanxay Vayqaoçao Beynəlxalq Ticarət Əməliyyat Mərkəzi Administrasiyasının rəis müavini Li Cinsonq ilə görüşüb. Görüşdə Vayqaoçao Azad Ticarət Zonası, burada yaradılmış "vahid pəncərə" sistemi, tətbiq olunan qanunvericilik, gömrük, maliyyə və logistika xidmətləri, zonanın rezidentləri barədə Azərbaycan nümayəndə heyətinə məlumat verilib, bu sahədə Çin təcrübəsi barədə fikir mübadiləsi aparılıb. Nazir Şahin Mustafayev Azərbaycan nümayəndə heyətinin Çinə səfəri, Birinci Çin Beynəlxalq İdxal Sərgisində Azərbaycan pavilyonlarında məhsullarımızın nümayiş olunması, eləcə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı barədə məlumat verib, limanın ərazisi də daxil olmaqla azad iqtisadi zonanın yaradılmasının nəzərdə tutulduğunu vurğulayıb.

**AZƏRTAC**

# Ədliyyə naziri Balakən rayonunda vətəndaşları qəbul edib

**Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.**

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 8-də ədliyyə naziri Fikrət Məmmədov Balakən rayonundakı Mədəniyyət Mərkəzində Balakən, Zaqatala və Qax rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbuldan əvvəl nazir Fikrət Məmmədov və Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstələri qoyub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şəraitin yaradılmasından razılıqlarını ifadə edərək, göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Səfər zamanı ədliyyə naziri, həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri ilə müşavirə keçirib.

Nazir yüz illiyi qeyd olunan Azərbaycan ədliyyəsinin tarixindən və müasir fəaliyyətindən bəhs edib, ədliyyə işçisi adını daim uca tutmağı, üzərlərinə düşən vəzifələri hər zaman vicdanla və məsuliyyətlə yerinə yetirməyi vurğulayıb, əlamətdar yubiley münasibətilə təbriklərini çatdırıb.

Müşavirədə dövlətimizin başçısının ədliyyə fəaliyyətinin müasirləşməsi, qabaqcıl texnologiyaların tətbiqi, iş şəraitinin yaxşılaşdırılması, məhkəmə qərarlarının icrası işinin təkmilləşdirilməsi, probasiya xidmətinin səmərəli fəaliyyətinin təşkili ilə bağlı tapşırıqlar verilib, vətəndaş məmnunluğunun təmin olunması, nizam-intizama, etik davranış qaydalarına dönmədən əməl edilməsi vurğulanıb.

**AZƏRTAC**

# Azərbaycan Hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında saziş imzalanıb

**Xarici işlər naziri Elmar Məmmədyarov noyabrın 8-də Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikası ilə Fond arasında ikitərəfli əməkdaşlıq məsələləri və gələcək əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Fondun prezidenti G.Əfəndiyeva təşkilatın həyata keçirdiyi müxtəlif layihələr və Türk Dünyasının ümumi mədəni dəyərlərinin təbliğinə yönəldilmiş tədbirlər barədə məlumat verib.

Tərəflər, həmçinin qardaş təşkilatların fəaliyyətlərini əlaqələndirmək və ümumi məqsədlərə nail olmaq üçün bir-birlərinin səylərini dəstəkləməyin zəruriliyini vurğulayıblar.

Görüşün sonunda xarici işlər naziri E.Məmmədyarov və Fondun prezidenti G.Əfəndiyeva "Azərbaycan Respublikası Hökuməti ilə Türk Mədəniyyəti və İrsi Fondu arasında Yerləşmə Ölkəsi haqqında Saziş"i imzalayıblar.

**AZƏRTAC**

# Azərbaycan və Argentina XİN rəhbərləri arasında təbrik məktubu mübadiləsi həyata keçirilib

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov və Argentina xarici işlər naziri Xorxe Faurie iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyi münasibətilə təbrik məktubu mübadiləsi həyata keçiriblər.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov məktubda Azərbaycan Respublikası ilə Argentina Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü münasibətilə öz həmkarı Xorxe Faurieni təbrik edib.

Məktubda Elmar Məmmədyarov 25 il ərzində iki ölkə arasında bir çox istiqamətlər üzrə, xüsusən ikitərəfli siyasi dialoq, iqtisadi və ticari əlaqələr və mədəniyyət sahələrində əməkdaşlığın daim inkişaf etdiyini bildirib.

Azərbaycan və Argentinanın, eyni zamanda, sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan birgə öhdəlikləri qeyd olunub. Bu xüsusda, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinin qəbul olunmasında və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı çərçivəsində həlli istiqamətində Argentinanın ölkəmizə davamlı dəstəyi xüsusi vurğulanıb.

Sonda nazir Elmar Məmmədyarov mövcud əlaqələrin gələcəkdə daha çoxşaxəli inkişafı üçün birgə səylərin əhəmiyyətini qeyd edib və qarşı tərəfi Azərbaycana səfərə dəvət edib.

Argentina Respublikasının xarici işlər naziri Xorxe Faurie Elmar Məmmədyarova ünvanladığı məktubda iki ölkə arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü münasibətilə təbrikini çatdırıb. Məktubda 1993-cü il noyabrın 8-də Moskva şəhərində imzalanmış bu Sazişin ölkələrimiz arasındakı əlaqələrin dərinləşməsi naminə əhəmiyyəti qeyd olunub.

Məktubda Azərbaycan nümayəndə heyətinin iki ölkə arasında keçirilən 4-cü siyasi məsləhətləşmələrdə iştirak etmək məqsədilə Argentinaya səfəri xüsusilə vurğulanıb.

Sonda Argentina xarici işlər naziri Xorxe Faurie hər iki xalqın rifahı naminə ikitərəfli əlaqələrin inkişafı üçün birgə səylərin artırılacağından əmin olduğunu qeyd edib.

**AZƏRTAC**

*Azərbaycan Ədliyyəsi - 100*

# Azərbaycan ədliyyəsi və müstəqil məhkəmə sistemi yeni inkişaf mərhələsində

**"Azərbaycanda hüquqi dövlət quruculuğu prosesi uğurla gedir. Hüquqi dövlət quruculuğu prosesinin təşəbbüskarı ulu öndər Heydər Əliyev olmuşdur. Onun təşəbbüsü ilə 1990-cı illərin əvvəllərində çox ciddi addımlar atılmışdır. Müstəqil Azərbaycanın Konstitusiyası qəbul edilmişdir. O vaxt belə bir strateji istiqamət müəyyən edilmişdir ki, Azərbaycanda hüquqi dövlət qurulmalıdır, qanunun aliliyi təmin edilməlidir və məhkəmə sistemi dünyada mövcud olan ən mütərəqqi təcrübəyə əsaslanmalıdır. Hesab edirəm ki, son illər ərzində bu istiqamətdə böyük nailiyyətlər əldə edilib".**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*(Şəki Məhkəmə Kompleksinin yeni inzibati binasının açılışı zamanı söylədiyi çıxışından)*

Bu günlərdə Azərbaycan ədliyyəsi özünün 100 illik yubileyini təntənəli şəkildə qeyd edir. Azərbaycanda ədliyyə və məhkəmə orqanlarının xalqımızın müstəqillik uğrunda mübarizəsində onun şanlı keçmişini əks etdirən zəngin tarixi vardır. Müstəqil dövlətimizin ədliyyə tarixinin ən şərəfli anları Azərbaycan Demokratik Respublikasının dövrünə təsadüf edir və məhz həmin zaman Azərbaycan Ədliyyəsinin əsası qoyulmuşdur. Şərqdə və müsəlman aləmində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gün, 1918-ci ilin may ayının 28-də Ədliyyə Nazirliyi də təsis edilmiş və həmin ilin noyabr ayının 14-də "Azərbaycan Respublikasının Məhkəmə Palatası və Onun Əsasnaməsi", noyabr ayının 22-də isə "Nazirliyin Əsasnaməsi" təsdiq edilmişdir.

İlk ədliyyə naziri təyin edilmiş görkəmli dövlət xadimi Xəlil bəy Xasməmmədovun fəaliyyəti dövründə demokratik prinsiplərə əsasən islahatların təməli qoyularaq yeni hüquq sisteminin təşkili ilə bağlı bir çox əhəmiyyətli qərarlar qəbul olunmuşdur. Nazirlik öz işinə ilk növbədə ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin yenidən təşkili ilə başlamış, gərgin fəaliyyət nəticəsində məhkəmə aparatları tədricən bərpa edilmiş, binalar qaydaya salınmış, çətinliklə də olsa, hüquq ədəbiyyatı kitabxanası yaradılaraq 6 aylıq hüquq kursları təşkil olunmuş, ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra digər qərarlar qəbul edilmişdir. Cəzaçəkmə yerləri ilə aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq hökumətin 1919-cu il 11 avqust tarixli qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş, nazirliyin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", həmçinin respublikanın yaranmasından il yarım keçməsi münasibətilə ümumi amnistiya haqqında və digər qanunlar parlamentin müzakirəsinə çıxarılmışdır.

Lakin 1920-ci ilin aprelində Rusiyanın XI Qızıl Ordusu tərəfindən Azərbaycan Demokratik Respublikasının işğal edilməsi Ədliyyə Nazirliyinin də ləğv edilməsinə səbəb olmuşdur.

Sovetlər dövründə—1933-cü ildə məhkəmələrin, prokurorluğun, istintaqın birləşdirilməsi, vahid məhkəmə siyasətinin həyata keçirilməsi, bütün hakimiyyət orqanlarının, təsərrüfat müəssisələrinin, ictimai birliklərin və fiziki şəxslərin hərəkətlərinin qanuniliyini müşahidə etmək məqsədilə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, onun səlahiyyətinə qanun layihələrinin hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sistemin idarə olunması, Ali Məhkəməyə, Dövlət Prokurorluğuna və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir. 1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanlarının işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. 1959-cu ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə edilmiş, Nazirlər Soveti yanında Hüquq Komissiyası təşkil olunmuş və bununla da Ədliyyə Komissarlığının səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür.

İfrat mərkəzləşdirilmiş hakimiyyətə aludəçilik, ayrı-ayrı dövrlərdə ədliyyə orqanlarından repressiya aləti kimi istifadə edilməsinə yönələn dövlət siyasəti, ədliyyə orqanlarının dəfələrlə ləğv edilib yenidən yaradılması ədliyyə sisteminin stabil struktura malik olmasına və işinin təşkilinə maneçilik törədirdi. Bir sözlə, dövlət strukturu kimi Ədliyyə Nazirliyinin saxlanmasına, eləcə də onun inkişafına o vaxtkı hakimiyyət nümayəndələri tərəfindən lazımi önəm verilməmişdir.

Ədliyyə Nzirliyinin yenidən yaradılması və onun təkmil bir struktur kimi formalaşması ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Məhz 1970-ci il oktyabr ayının 27-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi dövlət strukturu kimi əsaslı surətdə təsis edilmiş və bununla da Azərbaycan ədliyyəsinin inkişafında yeni mərhələ başlanmışdır. Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərərək məhkəmə orqanlarına təşkilati rəhbərliyi həyata keçirmiş, əhaliyə hüquqi yardımı yaxşılaşdırmış, notariat fəaliyyətinin və məhkəmə ekspertizalarının aparılmasını təmin etmiş, ümumiyyətlə, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yaranmışdır. Dahi rəhbərin ölkəmizin ədliyyəsinə qayğısı dövlət müstəqilliyimizi bərpa etdikdən sonra da davam etmişdir.

Bu illər ərzində ədalət mühakiməsinin beynəlxalq standartlara uyğun həyata keçirilməsi üçün Ədliyyə Nazirliyinin tərkibində məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti təsis edilmiş, cəzaçəkmə yerləri və istintaq təcridxanaları nazirliyin tabeliyinə verilmiş, istintaq idarəsi yaradılaraq ədalət mühakiməsi əleyhinə olan bir sıra cinayətlərin ibtidai istintaqının aparılması Ədliyyə Nazirliyinə həvalə edilmiş, yeni yaradılmış bələdiyyələrlə işin aparılması və onlara metodoloji yardım göstərilməsi, daşınmaz əmlakın dövlət reyestrinin aparılması və s. məsələlər Ədliyyə Nazirliyinə tapşırılmışdır. Həmçinin məhkəmələrin maddi-texniki təchizatı üzrə müəyyən işlər görülmuş, bir sıra xarici dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq haqqında müqavilə və sazişlər imzalanaraq nazirliyin beynəlxalq əlaqələri genişləndirilmiş, yüzlərlə qanun və digər normativ-hüquqi aktların layihələri hazırlanmış, ekspertizalar keçirilərək müvafiq rəylər verilmiş, əhaliyə hüquqi yardım yaxşılaşdırılmış, dövlət qeydiyyatı fəaliyyəti geniş həyata keçirilmişdir.

Bu islahatların fundamental bazasını, zəngin dövlətçilik təcrübəsinə malik olan dahi öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış və 12 noyabr 1995-ci il tarixdə ümumxalq referendum yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası təşkil edir. Həyata keçirilən məhkəmə-hüquq islahatları zamanı insan haqlarının əsl müdafiəsinə xidmət edən müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına xüsusi diqqət yetirilərək ölkəmizdə ilk dəfə olaraq test üsulu ilə şəffaf prosedurlarla yeni hakim korpusu formalaşmış, 2000-ci ildən isə üçpilləli yeni məhkəmə sistemi fəaliyyətə başlamışdır. Eyni zamanda qeyd etmək lazımdır ki, məhkəmə fəaliyyətini tənzimləyən qanunvericilik bazası tədqiq edilərək yeni müstəqil qurumlar - Məhkəmə-Hüquq Şurası, Hakimlərin Seçki Komitəsi yaradılmışdır.

Heydər Əliyevin Azərbaycan Ədliyyəsinə göstərdiyi yüksək etimadın, xüsusi diqqət və qayğının bariz təzahürü ədliyyə işçilərinin peşə bayramı gününün müəyyən edilməsidir. Köklü məhkəmə-hüquq islahatlarının ilk illərində ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması məqsədilə onların peşə bayramı gününün müəyyən edilməsinə təşəbbüs göstərilərək bu məsələ Ədliyyə Nazirliyinin Kollegiyasının, Məhkəmə-Hüquq Şurasının müzakirəsinə çıxarılmış və 22 noyabrın - 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirlynin Əsasnaməsinin təsdiq edildiyi günün, ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilməsi üçün ulu öndərə müraciət olunması barədə qərar qəbul edilmişdir. 22 noyabrın Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən edilməsi barədə dahi öndər Heydər Əliyevin 11 noyabr 2000-ci ildə imzaladığı Sərəncam ədliyyə işçilərinə, hakimlərə və məhkəmə aparatı işçilərinə verilən ən yüksək qiymət olmaqla yanaşı, tarixi irsin qorunmasına xidmət etmişdir.

Azərbaycan müstəqillik yolu çox çətin sınaqlardan keçmiş, ötən əsrin 90-cı illərinin əvvəllərində xalqımız səriştəsiz idarəçiliklə, ölkədaxili xaos və vətəndaş qarşıdurması, erməni təcavüzü ilə üzləşmişdir. Ulu öndər məhz belə bir ağır dövrdə - 1993-cü ildə müstəqilliyimizin itirilməsi ilə üz-üzə qalan xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı və öz tarixi missiyasını yerinə yetirdi. Bu dahi şəxsiyyətin apardığı siyasət nəticəsində müstəqillyimiz qorunub saxlanıldı, dövlətlə xalqın birliyi təmin edildi, bütün sahələrdə demokratik islahatlara başlanıldı, güclü dövlətin sarsılmaz təməli qoyuldu. Müasir Azərbaycanın memarı və qurucusu olan Heydər Əliyevin təşəbbüsü ilə başlanan hüquqi dövlət quruculuğu, məhkəmə-hüquq islahatları prosesi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən bu gün uğurla davam etdirilir. Ölkədə həyata keçirilən effektiv hüquqi islahatları dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən cənab Prezident qısa dövr ərzində qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş və onun inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur. Möhtərəm Prezidentimizin ədliyyə sisteminə göstərdiyi diqqət və qayğının əyani təzahürü olaraq ədliyyə fəaliyyətinin normativ-hüquqi əsasları təkmilləşdirilmiş, 2006-cı il aprel ayının 18-də ölkə Prezidenti tərəfindən nazirliyin yeni Əsasnaməsi təsdiq olunaraq ona hüquq-mühafizə orqanı statusu verilmişdir. Ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyətinin müasirləşdirilməsi və təkmilləşdirilməsinə xidmət edən dövlət başçısının tarixi əhəmiyyətli fərman və sərəncamlarına əsasən bu sahədə yeni iş metodlarının, qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının və elektron xidmətlərin tətbiqinə, eləcə də ən müasir infrastrukturun yaradılması istiqamətində işlərin görülməsinə başlanmışdır.

Heç şübhəsiz ki, hər bir demokratik cəmiyyətdə mükəmməl məhkəmə sisteminin bərqərar edilməsi və məhkəmə hakimiyyətinin müstəqilliyi müstəsna əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, məhkəmə sisteminin islahatı bu gün Avropa məkanında da aktuallığını itirməmişdir.

Qətiyyətlə deyə bilərik ki, Prezident İlham Əliyevin siyasi iradəsi ilə Azərbaycanda məhkəmə sisteminin daha da müasirləşdirilərək Avropa standartlarına tam uyğunlaşdırılması işi müvəffəqiyyətlə həyata keçirilir. Bu məqsədlə yeni qanunvericilik bazası yaradılmış, hakimlərin müddətsiz - son yaş həddinədək təyinatı, onların fəaliyyətlərinin qiymətləndirilməsi və intizam məsuliyyətinin təkmil əsasları təsbit olunmuşdur. Hakim korpusunun ən layiqli və hazırlıqlı hüquqşünaslarla formalaşdırılması üçün Avropa Şurası ilə birgə ölkəmizdə hakimlərin çox şəffaf və ədalətli seçim proseduru işlənilib hazırlanmışdır. Çoxmərhələli imtahanlardan, tədris və təcrübə keçmədən ibarət olan bu seçim şəffaflığına və obyektivliyinə görə Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilmiş və digər dövlətlərə tövsiyə edilmişdir. Təqdirəlayiq haldır ki, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) 14 illik fəaliyyətinə həsr olunmuş nəşrdə də Azərbaycanda həyata keçirilən məhkəmə islahatları, xüsusilə hakimlərin seçim prosesi yüksək qiymətləndirilmişdir. Hesab edirik ki, beynəlxalq arenada Azərbaycan Prezidentinin bilavasitə rəhbərliyi ilə inkişaf etdirilən köklü məhkəmə-hüquq islahatlarına verilən bu yüksək qiymət heç də təsadüfi deyil. Belə ki, islahatlar aparılarkən Avropa Şurası ilə sıx əməkdaşlıq edilərək məhkəmə hakimiyyətinin müstəqilliyinin, şəffaflığının və əlçatanlığının təmin olunması, ədalət mühakiməsinin səmərəliliyinin artırılması ilə bağlı kompleks tədbirlər həyata keçirilib, o cümlədən yeni məhkəmələr və məhkəmə təsisatları yaradılıb. Artıq 13 ildir məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası səmərəli fəaliyyət göstərir və bu gün Şura daha geniş səlahiyyətlərə malikdir. Eyni zamanda Avropa Şurasının sənədləri, həmçinin BMT-nin Banqalor prinsipləri nəzərə alınaraq işlənib təsdiq olunmuş Hakimlərin Etik Davranış Kodeksinin tələblərinə hakimlərimiz tərəfindən riayət edilməsinə xüsusi diqqət yetirilir. Hakimlik fəaliyyətinin etik prinsip və standartlarının toplusu olan bu Kodeks spesifik əxlaq və ədəb tələblərini, peşə etikası məsələlərini, iş fəaliyyətindən kənar davranışı nizamlayır, peşə fəaliyyətinə münasibəti müəyyən edir. Bununla yanaşı, Azərbaycanda yaradılmış və bir müddət əvvəl Hakimlərin ittifaqı kimi birləşmiş hakim assosiasiyaları fəaliyyət göstərir. Bu assosiasiyalar məhkəmə sahəsində qanunvericilik islahatları prosesində fəal iştirak edir, təkliflərlə çıxış edir, həm hakimlər, həm də məhkəmə aparatı işçiləri üçün treninqlər keçirir, ictimai tədbirlər təşkil edirlər. Ümumi Məhkəmə Hakimləri Assosiasiyası, həm də Beynəlxalq Hakimlər Assosiasiyasının tamhüquqlu üzvüdür.



Ümumən hakimlərin və ədliyyə işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən mütəmadi xarakterli tədbirlərin görülməsi xüsusilə qeyd edilməlidir. Ədliyyə Akademiyası tərəfindən hakimlərin, vəkillərin, ədliyyə və prokurorluq orqanları işçilərinin milli qanunvericiliyin tətbiqi, eləcə də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüquqlarının öyrənilməsi sahəsində peşə hazırlığının artırılması məqsədi ilə vaxtaşırı olaraq tədris kursları təşkil olunur, habelə mütərəqqi hüquq təcrübəsinin mənimsənilməsi və gələcəkdə implementasiya edilməsi məqsədilə hakimlərimiz Avropa ölkələrinə ezam edilirlər. Qeyd etmək istərdik ki, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin dəstəyi sahəsində Şəki Apelyasiya Məhkəməsi pilot məhkəmə kimi iki il ərzində CEPEJ-in "Azərbaycanda məhkəmələrin səmərəliliyinin artırılmasına, hakimlərin təliminin təkmilləşdirilməsinə və məhkəmələrdə özünüidarəetməyə dəstək" layihəsinin icrasında iştirak etmiş və hazırda da Bakı Şəhər Nərimanov Rayon Məhkəməsi ilə yanaşı, CEPEJ-in pilot məhkəmələr şəbəkəsinin üzvüdür. Qeyd olunan layihədə iştirak bizə məhkəmə işinin həll olunma faizi, məhkəmə işinə baxılma müddəti, həllini gözləyən məhkəmə işlərinin müddəti, hakimbaşına düşən məhkəmə işlərinin sayı, heyətbaşına düşən məhkəmə işlərinin sayı, hakimbaşına düşən heyətin sayı və sair CEPEJ alət və indikatorlarından istifadə edərək məhkəmənin fəaliyyətini, eləcə də ümumən ədalət mühakiməsinin səmərəliliyini qiymətləndirmək metodologiyasını öyrətmişdir. Eyni zamanda, CEPEJ alətlərini tətbiq etməklə Şəki Apelyasiya Məhkəməsinin fəaliyyətinin qiymətləndirilməsinə dair məhkəmə istifadəçiləri, vəkillər və məhkəmə işçiləri arasında məmnuniyyət sorğuları keçirilmişdir. Məhkəmə istifadəçiləri arasında aparılan məmnuniyyət sorğuları zamanı məhkəmə sistemi, məhkəmə binası haqqında fikirlərlə yanaşı, hakimlərin və məhkəmənin işçi heyətinin davranışı, nəzakətlilik və səriştəlilik səviyyəsi barədə respondentlərin rəyləri öyrənilmişdir.

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının cəmiyyətin inkişafına təsir göstərən mühüm amillərdən birinə çevrilməsi artıq danılmazdır. Bu baxımdan məhkəmə fəaliyyətində texnoloji yeniliklərin tətbiqi ən mühüm vəzifələrdən biri kimi görünür. Ümumiyyətlə, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə həyata keçirilən köklü islahatlar çərçivəsində məhkəmə fəaliyyətinin elektronlaşdırılması və müxtəlif texnoloji yeniliklərin tətbiqi obyektiv zərurətə çevrilmişdir. Dövlət başçısının "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncamı bu sahədə strateji prioritetləri müəyyən etmişdir. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması haqqında sərəncam məhkəmə fəaliyyətində təkamülün əsasını qoymuşdur. Bu sistemin yaradılması məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edir. Ölkəmizdə elektron məhkəmə sisteminin yaradılması istiqamətində Dünya Bankı ilə birgə həyata keçirilən "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində vətəndaşların məhkəmələrə müraciət imkanlarının sadələşdirilməsi və hüquqi xidmətlərin təkmilləşdirilməsi məqsədilə bütün məhkəmələri əhatə edən məhkəmə sisteminin vahid internet portalı yenilənərək zənginləşdirilmiş, ictimaiyyət üçün daim açıq olan milli qanunvericiliyin elektron bazası (www.e-qanun.az) və Hüquqi Aktların Dövlət Reyestrinin (www.huquqi-aktlar.gov.az) fəaliyyəti təkmilləşdirilmiş, o cümlədən müasir İKT ilə təchiz edilmiş yeni binalarda elektron məhkəmə sisteminin bir çox komponentləri tətbiq edilməyə başlanılmışdır. Məhkəmə sisteminin vahid internet portalı ali, apelyasiya və birinci instansiya məhkəmələri, onların yurisdiksiyası, baxılan işlər və çıxarılan qərarlar, müraciətə əlavə edilməsi zəruri olan sənədlər, qəbul günləri və s. barədə ətraflı məlumat almaq, iddia ərizələri və digər məhkəmə sənədlərinin nümunələrini əldə etmək, həmçinin onlayn rejimdə müraciət etmək və cavab almaq imkanı yaradır. Elektron məhkəmənin tam tətbiqi nəticəsində insanlar artıq məhkəməyə gəlmədən elektron formada müraciət edə biləcək, proses barədə məlumatları elektron daşıyıcıda dərhal əldə edəcək, məhkəmə prosesləri audio-video və digər texniki vasitələrlə qeydə alınacaq, habelə prosesi onlayn rejimdə müşahidə etmək imkanı yaradılacaq, proses iştirakçıları məhkəmənin gedişi, qərarlar və onların icra vəziyyəti və s. məlumatları əks etdirən elektron "şəxsi kabinetə" malik olacaq, işlərin elektron dövriyyəsi təşkil ediləcəkdir. Artıq Elektron Sənəd Dövriyyəsi və Məhkəmə İşlərinin İdarəetmə sistemlərinin tətbiqinə başlanılmış, yeni inşa olunmuş məhkəmə bina və komplekslərində elektron məhkəmə sisteminin bəzi komponentləri nəzərə alınmış, o cümlədən həmin binalarda beynəlxalq tələblərə cavab verən iş prosesinin təşkilinə, vətəndaşların bu qurumlara müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilərək bütün zəruri infrastruktur yaradılmış, ən müasir informasiya-kommunikasiya avadanlıqları ilə təchiz olunmuşdur. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması ilə bağlı pilot məhkəmələrdə elektron sənəd dövriyyəsi və "AZEMİS" informasiya sisteminin, müvafiq sənəd şablonlarının hazırlanaraq tətbiqinə də başlanılmışdır. Qeyd etmək lazımdır ki, Ədliyyə Nazirliyinin Dünya Bankı ilə birgə görülən kompleks tədbirlər nəticəsində "Elektron məhkəmə" informasiya sisteminin yaradılması istiqamətində nəzərdə tutulmuş çoxmərhələli proseslər bu gün də sürətlə davam etdirilir.

"Elektron məhkəmə" informasiya sisteminin tərkib hissəsi olan və ötən il Avropa Şurası tərəfindən keçirilən "Ədliyyənin Kristal Tərəzisi" müsabiqəsində Məhkəmə-Hüquq Şurası tərəfindən təqdim edilən "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" adlı layihə 37 layihə sırasından qalib gəlmiş, 4 layihədən biri olmuş və məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək mükafata layiq görülmüşdür. Ölkəmizin bu nüfuzlu müsabiqədə qalib gəlməsi Azərbaycanda həyata keçirilən məhkəmə islahatlarının uğurundan xəbər verməklə zəngin təcrübəsinin beynəlxalq aləmdə təqdir olunmasına bariz nümunədir. "Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab" layihəsinin əsas mahiyyəti məhkəmə sistemində mütərəqqi elektron idarəetmənin tətbiq olunmasından ibarətdir. Elmi cəhətdən əsaslandırılmış bu sistem toplanan elektron statistik məlumatlar əsasında müxtəlif növ elektron analitik hesabatların hazırlanmasını, məhkəmə və hakimlərin fəaliyyətinin qiymətləndirilməsini və onun məhsuldarlığının müəyyən olunmasını mümkün edir. Bununla məhkəmə sistemində strateji idarəetmənin və planlaşdırmanın səmərəliliyi əhəmiyyətli dərəcədə artırılır, daha geniş məlumat göstəriciləri üzrə qərar vermək imkanları yaranır. Belə layihələr qiymətləndirilərkən həm də ölkədə gedən inkişaf prosesi, aparılan əsaslı islahatlar izlənilir, nəzərdən keçirilir. Əldə olunan bu nailiyyət də məhz möhtərəm Prezidentimiz İlham Əliyevin güclü siyasi iradəsi ilə ölkəmizdə həyata keçirilən çoxşaxəli islahatlara verilən yüksək qiymətdir. Bu mükafat, həmçinin Azərbaycanın məhkəmə-hüquq sahəsində Avropa Şurasının üzv dövlətləri arasında ön sıralarda yer almasını təzahür etdirməklə əlaqələrimizin müsbət məcrada inkişafına verilən böyük töhfədir. Bununla Azərbaycanın adı Avropanın məhkəmə tarixinə qabaqcıl təcrübəyə malik olan ölkə kimi düşmüşdür.

Məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi sahəsində atılmış mühüm addımlardan biri də regionlarda yaşayan vətəndaşların qanuni maraq və mənafeyinin ədalət mühakiməsi yolu ilə qorunması mexanizmlərinin təkmilləşdirilməsi məqsədi ilə ölkə başçısının 19 yanvar 2006-cı il tarixdə "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Fərmanının imzalanması olmuşdur. Regionların sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilmiş bir sıra təşkilati-hüquqi, sosial tədbirlərin mahiyyətindən irəli gələn həmin fərman əsasında bölgələrdə yeni apelyasiya, ağır cinayətlər və inzibati-iqtisadi məhkəmələr yaradılmışdır. Həyata keçirilmiş diqqətəlayiq tədbirlər sırasında onu da qeyd etmək lazımdır ki, ölkəmizin sürətli iqtisadi inkişafı ilə əlaqədar məhkəmələrin iş yükünün dəfələrlə çoxalması nəzərə alınaraq hakimlərin və aparat işçilərinin sayı əhəmiyyətli dərəcədə artırılmış, onların maddi təminatı yaxşılaşdırılmışdır. Bununla yanaşı, ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında məhkəmə infrastrukturunun müasirləşdirilməsinin rolu nəzərə alınaraq bu sahədə irimiqyaslı işlər görülür, məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan yeni müasir məhkəmə binaları tikilib istifadəyə verilir. Xüsusi vurğulamaq istərdik ki, ölkə başçısının müvafiq fərman və sərəncamları ilə müəyyən edilmiş prioritet məsələlərin uğurla həyata keçirilməsi nəticəsində son illərdə nüfuzlu beynəlxalq maliyyə qurumu olan Dünya Bankı ilə birgə "Mütərəqqi ədliyyə xidmətləri və müasir məhkəmə infrastrukturu" layihəsi çərçivəsində paytaxtda və bölgələrdə bir sıra yeni məhkəmə binaları inşa olunmuşdur. Hazırda da bu istiqamətdə zəruri tədbirlər görülərək yeni məhkəmə binalarının inşası davam etdirilir.

Möhtəşəmliyi və müasirliyi ilə göz oxşayan Şəki Məhkəmə Kompleksinin açılışında 2015-ci ilin noyabr ayında dövlət başçısının iştirakı qürurverici və tarixi hadisə kimi ölkənin hüquq ictimaiyyətinin, xüsusilə də kompleksdə fəaliyyət göstərən hakimlərin və aparat işçilərinin yaddaşında qalmaqdadır. Şəki Məhkəmə Kompleksində istifadəyə verilmiş digər yeni məhkəmə binalarında olduğu kimi, proseslərin daha dəqiq və sürətlə protokollaşdırılmasına xidmət edən və audio-video yazılışları aparan "Femida" sistemi, videkonfransların, təqdimatların keçirilməsi, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarəetmə sistemi üçün bütün zəruri infrastruktur quraşdırılmış, müasir konfrans zalında isə hakimlərə və məhkəmə işçilərinə iclaslara, toplantılara birbaşa qoşulmaq imkanı yaradılmışdır. Bununla yanaşı, gözdən əlil vətəndaşların sərbəst hərəkəti üçün binanın ictimai zonasının hər mərtəbəsinin döşəməsinə xüsusi örtük salınmış, bütün otaqların adlarını əks etdirən lövhələrdə xüsusi yazılar yerləşdirilmiş, eləcə də "Əlillərin hüquqlarının qorunması haqqında" Konvensiyanın tələblərinə müvafiq olaraq digər zəruri tədbirlər görülmüşdür. Yeniliklər, həmçinin təqsirləndirilən şəxslərə də aid edilmiş, onların əvvəllər olduğu kimi, dəmir barmaqlıqlar arxasında deyil, beynəlxalq standartlara uyğun xüsusi ayrılmış zirehli şüşə otaqda saxlanılması nəzərdə tutulmuşdur. Yeni məhkəmə binalarının ifrastrukturunun vacib amillərindən biri də binaların hakimlər və məhkəmə işçiləri üçün inzibati, vətəndaşlar, dövlət ittihamçıları və vəkillər üçün isə ictimai olmaqla iki zonaya bölünməsidir.

Böyük iftixar hissi ilə qeyd edə bilərik ki, beynəlxalq standartlar səviyyəsində inşa edilmiş Şəki Məhkəmə Kompleksi regional səviyyədə keçirilən tədbirlərə ev sahibliyi etmiş, kompleksin müasir texnologiya və avadanlıqlarla təchiz olunması isə distant formada tədbirlərin həyata keçirməsinə imkan yaratmışdır. Demək olar ki, Şəki Məhkəmə Kompleksi Şəkiyə təşrif buyurmuş xarici qonaqların daimi ziyarət yerinə çevrilmiş, o cümlədən kompleksle yaxından tanış olmuş Latviya Respublikasının ədliyyə nazirini, Latviya Respublikası Ədliyyə Nazirliyinin dövlət katibini, Monteneqro Ali Məhkəməsinin sədrini və onların başçılıq etdiyi nümayəndə heyətini valeh etmişdir.

Dövlət başçısı İlham Əliyevin, Şəki Məhkəmə Kompleksinin yeni inzibati binasının açılışı zamanı çıxışındakı bu müddəadan da aydın olur ki, Azərbaycan ədliyyəsində aparılan islahatlar və təkmilləşdirmələr cəmiyyətdə ədalətin bərqərar və möhkəmlənməsinə xidmət edir. "Ümumiyyətlə, həyatda hər şey ədalət əsasında qurulmalıdır. Ədalət pozulduqda, əlbəttə ki, həm narazılıq yarana, həm də ümumiyyətlə, cəmiyyətin müsbət inkişafı çətinliklərlə üzləşə bilər. Ədalətli qərarlar həm insanlarda dövlətə inamı artırır, eyni zamanda, həyatımızı tənzimləyir. Bütün qərarlar ədalətli olmalıdır. Məhkəmə sistemində qəbul edilmiş qərarlar, aparılan islahatlar, bax, bu məqsədi güdür".

Əminliklə qeyd etmək istərdik ki, Azərbaycanın məhkəmə və ədliyyə orqanları bundan sonra da dövlətimizin müstəqilliyinin daha da möhkəmlənməsi naminə səmərəli fəaliyyət göstərəcək və çağdaş Azərbaycanın hüquqi dövlət quruculuğu tarixində layiqli yerini tutacaqlar.

Fürsətdən istifadə edərək Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi münasibəti ilə ədliyyə orqanlarının çoxminli kollektivinin hər bir üzvünü, hakimləri və məhkəmə aparatı işçilərini səmimiyyətlə təbrik edir və ən xoş arzularımızı bildiririk.

**Mübariz ƏKBƏROV,**
**Şəki Apelyasiya Məhkəməsinin sədri.**

*Azərbaycan Ədliyyəsi - 100*

# Azərbaycan ədliyyəsinin yeni inkişaf mərhələsində Probasiya xidmətinin rolu

**Ədliyyə orqanlarının tarixi, əslində, mərkəzi dövlət idarəçiliyi aparatının yaranması və inkişafı tarixidir. Heç təsadüfi deyildir ki, Azərbaycan Xalq Cümhuriyyətində Ədliyyə Nazirliyi istiqlaliyyətin elan edildiyi gündə - 28 may 1918-ci ildə yaradılmış, sonrakı dövrdə isə müstəqil dövlətçiliyin mühüm institutlarından biri kimi ədliyyə sisteminin formalaşdırılması üçün zəruri tədbirlər həyata keçirilmişdir. Bununla da məhkəmə və prokurorluq orqanlarının fəaliyyətinin təmin olunması ilə yanaşı, cəzaçəkmə işinin təşkili sahəsində islahatlar aparılmış, hətta ümumi amnistiya aktı belə qəbul edilmişdir.**

Sovet hakimiyyəti illərində təşkilat strukturu və idarəçilik forması mövcud siyasi rejimin məram və məqsədlərinə uyğun bir neçə dəfə dəyişikliyə uğrayan Azərbaycan ədliyyə sistemində mütərəqqi islahatlar ümummilli lider Heydər Əliyevin respublika rəhbəri seçilməsindən sonra həyata keçirilmişdir. 1970-ci ildə Ədliyyə Nazirliyi yenidən təsis edilərək, onun səmərəli fəaliyyətinə şərait yaradılmışdır. Bu, dövlət müstəqilliyinin bərpasından sonra xalq cümhuriyyətinin varisi olan respublikamızın demokratik inkişafının təmin olunmasında, qabaqcıl beynəlxalq təcrübə əsasında yeni tipli ədliyyə, məhkəmə-hüquq sisteminin formalaşmasında əvəzsiz rol oynamışdır. Ulu öndər Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinin Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq olunduğu 1918-ci ilin 22 noyabr gününü Ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis etməsi isə müstəqil dövlətçilik tariximizə hörmət və ehtiramın təcəssümü olmaqla, həm də taleyini ədliyyə işinə bağlayan insanların fəaliyyətinə verilən dəyərin ifadəsi, mənəvi stimuldur.

Ölkəmizdə cəza təyinetmə və onun icrası sahəsində dövlət siyasətinin təkmilləşdirilməsi və humanistləşdirilməsi ilə bağlı ilk qətiyyətli tədbirlər ulu öndər Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Ədalətliliyi və insanpərvərliyi ilə xalqın sevgisini qazanmış dahi rəhbər Şərqdə ilk dəfə müstəqil Azərbaycanda ölüm cəzasının ləğvinə nail olmuş, əfv və amnistiya təsisatlarını bərpa edərək, 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalamış, onun təşəbbüsü ilə Milli Məclis 7 amnistiya aktı qəbul etmişdir. Nəticədə on minlərlə məhkum vaxtından əvvəl azad cəmiyyətə qayıtmış və doğmalarına qovuşmuşdur.

Ümummilli liderin müstəqil dövlətçilik siyasətini müasir dövrün qlobal çağırışları və mütərəqqi beynəlxalq təcrübə əsasında daha da zənginləşdirərək davam etdirən möhtərəm Prezident cənab İlham Əliyev ölkəmizin ədliyyə sisteminin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən islahatların müəllifidir. Bu islahatların ilkin mərhələsini dövlətimizin başçısının "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərmanında müəyyənləşdirilən və uğurla icra olunan tədbirlər təşkil etmişdir. Həmin dövrdə ölkəmizdə baş verən sürətli sosial-iqtisadi dəyişikliklər, dövlət idarəçilik mexanizmlərinin müasirləşdirilməsi, məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi ədliyyə sisteminin inkişafını və beynəlxalq standartlara uyğun qurulmasını zəruri edən amillər olmuşdur. Fərmanın tələblərinə uyğun olaraq, penitensiar xidmətin fəaliyyətinin təkmilləşdirilməsi, məhkumların hüquqlarına riayət olunması, onların cəmiyyətə reinteqrasiya olunması prosesinə kömək göstərilməsi, məhkəmə qərarlarının icrası işinin səmərəliliyinin artırılması üçün təsirli tədbirlər görülmüşdür.

Cənab Prezidentin 6 fevral 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan ədliyyəsinin inkişafına dair 2009-2013-cü illər üçün Dövlət Proqramı"nın icrası nəticəsində isə ədliyyə sisteminin inkişafında diqqətəlayiq nəticələr əldə olunmuşdur. Ədliyyə orqanları yeni informasiya və kommunikasiya texnologiyaları ilə təchiz edilmiş, sosial, normativ-hüquqi və maddi-texniki təminat daha da yaxşılaşdırılmış, infrastruktur yenilənmişdir. Təbii ki, bütün bunlar cəzaların icrası işinin də təkmilləşdirilməsində mühüm rol oynamışdır. Bununla belə, ölkə başçısı dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlərin penitensiar xidmətin və bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri hesab etmiş, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 10 fevral 2017-ci il tarixli Sərəncam imzalamışdır. Sərəncamda penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirlərinin davam etdirilməsi vacib sayılmaqla yanaşı, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Ədliyyə Nazirliyinin Probasiya xidməti yaradılmışdır. Ölkə başçısının "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 7 noyabr 2017-ci il tarixli Fərmanı Probasiya xidmətinin fəaliyyətinin təşkil edilməsi üçün əsas normativ-hüquqi baza olmuşdur.

Probasiya xidməti Ədliyyə Nazirliyinin tərkibində baş idarə səlahiyyətli struktur qurumu kimi müəyyən edilməklə, onun kadr korpusunun komplektləşdirilməsi üçün əlavə ştat vahidləri ayrılmışdır. Yeni xidmətin təşkilati cəhətdən formalaşdırılması 2017-ci ilin sonunadək başa çatdırılmış, ədliyyə naziri Fikrət Məmmədovun əmri ilə xidmətin strukturu və ştat bölgüsü təsdiq edilmiş, yerli rayon (şəhər) icra qurumları müvafiq olaraq icra və probasiya şöbələri adlandırılmış, Gəncə və Sumqayıt şəhərlərində pilot layihə qaydasında Probasiya xidmətinə birbaşa tabe olan probasiya şöbələri yaradılmış, xidmətin Əsasnaməsi təsdiq olunmuşdur.

Probasiya xidmətinin fəaliyyətinin təşkili ilə bağlı ötən ilin dekabr ayında yerli qurumların iştirakı ilə geniş ümumrespublika müşavirəsi keçirilmiş, 2017-ci il 10 fevral tarixli Sərəncamdan irəli gələn vəzifələr müzakirə edilmişdir. Sərəncamda Probasiya xidmətinin fəaliyyəti ilə bağlı ölkə başçısının diqqəti cəlb edən iki tapşırığı xüsusilə qeyd olunmalıdır. İlkin olaraq, Sərəncamda ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası ilə bağlı ifadə olunmuş narahatlığın aradan qaldırılması, bu tədbirlərin daha səmərəli icrasının təmin olunmasıdır. İctimai işlər növündə cəza ötən əsrin ikinci yarısından başlayaraq dünyanın əksər ölkələrində geniş tətbiq edilir. Bu cəza azadlıqdan məhrumetməyə alternativ olmaqla, icrası böyük vəsait tələb etmir və cəzaçəkmə müəssisələrində məhkumların sayının artmasının qarşısını alır.

Sərəncamın icrası ilə əlaqədar ilkin olaraq ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı Azərbaycan Respublikasının Cəzaların İcrası, İnzibati Xətalar məcəllələrinə, habelə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"yə müvafiq dəyişikliklər edilmişdir. Müəyyən edilmiş yeni qaydalar ictimai işlər növündə cəzanın və ya inzibati tənbehin icrası ilə bağlı vəzifələri yerinə yetirən məsul subyektlərin, yəni məhkumun yaşayış yeri üzrə yerli icra hakimiyyətinin, müvafiq işlərin yerinə yetirildiyi yerin işəgötürəninin və cəzanın icrasına nəzarət edən icra məmurunun vəzifələrini konkretləşdirmiş, ictimai işlərin icrası ilə bağlı əvvəllər mövcud olmuş bir sıra çətinlikləri aradan qaldırmışdır.

Qanunvericiliyin yeni normalarına əsasən yerli icra hakimiyyəti orqanları müvafiq inzibati-ərazi vahidi üzrə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısını və həmin işlərin həyata keçirilməsi üçün zəruri olan şəxslərin sayı barədə məlumatı növbəti ay başlayanadək icra məmuruna göndərməlidirlər. İcra məmuru ictimai işlər növündə cəzaya məhkum edilmiş və ya inzibati tənbeh tətbiq edilən şəxsə ictimai işlərin həyata keçiriləcəyi yerlərin siyahısındakı yerlərdən birində işləmək üçün göndəriş verir. İctimai işlərin həyata keçiriləcəyi yerlərlə bağlı hər hansı məlumat tələb edildikdə, icra məmuru müvafiq yerli icra hakimiyyəti orqanına bu barədə sorğu verir və həmin sorğuya beş gündən gec olmayaraq cavab verilməlidir. İşəgötürən, barəsində müvafiq cəza və ya inzibati tənbeh tətbiq edilən şəxsləri onlar üçün müəyyən edilmiş ictimai işlərin həyata keçiriləcəyi müvafiq yerdə işə təhkim etməli, ictimai işlərin yerinə yetirilməli olduğu vaxtların cədvəlini tərtib edərək, üç gündən gec olmayaraq icra məmuruna göndərməli, həmin yerdə işlərin yerinə yetirilməsinə nəzarət etməli, onların işlədikləri saatların uçotunu aparmalı, habelə ictimai işləri yerinə yetirməkdən boyun qaçırma halları barədə dərhal icra məmuruna məlumat verməlidir. İcra məmuru öz növbəsində ayda iki dəfədən az olmayaraq, şəxsin ictimai işləri yerinə yetirməli olduğu vaxtlarda həmin işlərin görüldüyü yerlərə baş çəkməklə protokol tərtib edir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sahədə işin səmərəli təşkili məqsədilə 17 oktyabr 2017-ci il tarixli qərarla "İctimai işlər cəzasına məhkum olunmuş və ictimai işlər növündə inzibati tənbeh tətbiq edilmiş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi Qaydası"nı təsdiq etmişdir. Bu sənəddə ictimai işlərin həyata keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi ilə bağlı bir sıra tələblər öz əksini tapmışdır. Belə ki, ictimai işlərə cəlb edilən şəxslərin peşə vərdişləri, təcrübəsi, yaşı, eləcə də iş rejimi və zəruri əmək şəraitinin həmin şəxslərin sağlamlıq vəziyyətinə uyğunluğunun nəzərə alınması, bu zaman açıq havada və kollektiv formada təşkil olunan iş yerlərinə üstünlük verilməsi tələb kimi qoyulmuşdur. Göstərilən qərarda ictimai işlərin yerinə yetirilməsinə cəlb edilən yetkinlik yaşına çatmayan şəxslərin hüquqlarının müdafiəsi, onların yaş xüsusiyyətləri də nəzərə alınmışdır. Belə ki, bu kateqoriyalı şəxslərin işə cəlb olunması zamanı onların təhsilindən və ya əsas işindən sonra asudə vaxtlarında yerinə yetirə biləcəkləri işlər əsas götürülməli, onların yaş dövrünə uyğun psixoloji cəhətlərə xüsusi diqqət yetirilməlidir. Bundan əlavə, ictimai işlər növündə istər cəzanın, istər inzibati tənbehin formal icrasının qarşısının alınması məqsədilə Sərəncamda verilmiş tapşırığa əsasən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə ictimai işlərin icrası ilə bağlı vəzifələrin yerinə yetirilməməsi ilə əlaqədar vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən yeni 528-1-ci maddə əlavə edilmişdir. Bu yeni normaya əsasən müvafiq vəzifəli şəxslərin inzibati qaydada cərimə edilməsi nəzərdə tutulmuşdur. Qeyd olunmalıdır ki, Ədliyyə Nazirliyinin rəhbərliyi tərəfindən ictimai işlərin icrası prosesinə nəzarət gücləndirilmiş, bu məsələ dəfələrlə nazirliyin kollegiyasında müzakirə edilmiş və işin səmərəsinin artırılması məqsədilə zəruri tapşırıqlar verilmişdir. Eyni zamanda, ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası mexanizminin tənzimlənməsi ilə bağlı Ədliyyə Nazirliyi Kollegiyasının 24 aprel 2018-ci tarixli qərarı ilə "İctimai işlər növündə cəzanın və inzibati tənbehin icrası Qaydalar"ı təsdiq edilmişdir. Bu sahədə fəaliyyət nazirliyin xüsusi nəzarətinə götürülməklə yerlərdə mütəmadi monitorinqlər keçirilir.

Ötən dövr ərzində probasiya qurumlarının yerli icra hakimiyyəti orqanları ilə işgüzar əlaqələrinin möhkəmləndirilməsi ilə bağlı çox mühüm tədbirlər görülmüşdür. Müşahidə olunan problemlərin həlli ilə bağlı respublikanın şəhər və rayon icra hakimiyyəti başçılarına məktublar ünvanlanmışdır. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında yerli icra hakimiyyəti orqanlarının məsul əməkdaşları üçün ictimai işlər növündə cəzanın və inzibati tənbehin icrası xüsusiyyətləri mövzusunda tədris məşğələləri keçirilmişdir. Eyni zamanda, ictimai işlərin icrası ilə bağlı qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Avropa İttifaqı ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin birgə həyata keçirdiyi "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" adlı layihə çərçivəsində yerli probasiya qurumlarının əməkdaşlarının, xarici ekspertlərin, respublikanın bir sıra şəhər və rayon icra hakimiyyəti orqanlarının məsul əməkdaşlarının iştirakı ilə Gəncə, Şəki və Bakıda "İctimai işlər növündə cəza və onun icrasının təşkili" mövzusunda seminarlar keçirilmiş, bu növ cəzaların və inzibati tənbehin daha səmərəli icrasının təşkili məqsədilə müzakirələr aparılmışdır.

Cari ilin ötən dövrü ərzində probasiya xidmətinə daxil olmuş məhkəmə qərarlarına əsasən 895 şəxs ictimai işlər növündə cəzaların və inzibati tənbehin icrasına cəlb edilmiş, onlardan 470 nəfərinin ictimai işlərin yerinə yetirilməsi təmin edilmişdir. 2018-ci ilin noyabrın 1-nə probasiya qurumlarının qeydiyyatında 146 məhkum və 279 inzibati tənbeh tətbiq edilmiş şəxs qalmışdır ki, onlar tərəfindən ictimai işlərin yerinə yetirilməsinə nəzarət edilir.

Azərbaycan Respublikası Prezidentinin qeyd olunan Sərəncamında cəzaların icrası işində müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə edilməsi ilə bağlı verdiyi tapşırıq da mühüm əhəmiyyətə malikdir. 2018-ci ilin əvvəlindən Probasiya xidməti tərəfindən məhkəmələrin müvafiq qərarları əsasında cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş məhkumlara elektron nəzarət vasitələrinin tətbiq olunmasına başlanılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 aprel 2018-ci il tarixli qərarı ilə təsdiq edilərək aprelin 15-dən qüvvəyə minmiş "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə tətbiq edilən elektron nəzarət vasitələrinin Siyahısı" və "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi Qaydaları"na əsasən azadlığın məhdudlaşdırılması növündə cəzaların icrası ilə bağlı elektron nəzarət vasitələrinin tətbiqinə başlanılmışdır. Məhkumlara nəzarətin həyata keçirilməsini təmin etmək məqsədilə Probasiya xidmətində "Şans" elektron nəzarət sistemi ilə inteqrasiya olunmuş, ilin bütün günləri 24 saat ərzində fasiləsiz fəaliyyət göstərən Monitorinq mərkəzi yaradılmışdır. Qeyd olunmalıdır ki, elektron nəzarət vasitələrinin tətbiqi prosesinə hazırlıq mərhələsində bir sıra ölkələrdə həmin qurğuların nümunələri, onların xüsusiyyətləri və funksionallığı öyrənilməklə qiymətləndirilmiş, nəticədə bu avadanlıqların Azərbaycanda istehsalına başlamış yerli şirkətlə müvafiq müqavilə bağlanmışdır. Eyni zamanda, Elektron nəzarət vasitələrinin tətbiqi ilə əlaqədar beynəlxalq təcrübəni öyrənmək məqsədilə xidmətin əməkdaşları Rusiya Federasiyasında, Latviyada və Estoniyada səfərdə olmuş, cari ilin aprel ayında Xorvatiyanın paytaxtı Zaqreb şəhərində Avropa Probasiya Konfederasiyasının təşkil etdiyi "Elektron nəzarət üzrə 11-ci Avropa Konfransı"nda iştirak etmişlər. Bu tədbirlərdə elektron nəzarət vasitələrinin tətbiqi təcrübəsi, bu sahədə elektron texnologiyalarının açdığı imkanlar, mövcud problemlər və onların həlli yolları müzakirə olunmuşdur.

Elektron nəzarət vasitələrinin tətbiqi sahəsində görülən işlər barədə ictimaiyyəti məlumatlandırmaq məqsədilə cari ilin mayın 7-də Probasiya xidmətində elektron monitorinq fəaliyyətinə dair ictimai təqdimat keçirilmişdir. İctimaiyyət və media nümayəndələri Probasiya xidmətinin elektron monitorinq fəaliyyəti ilə yaxından tanış olmuş, Monitorinq mərkəzində məhkumlar üzərində aparılan izləmə prosesi və elektron qolbaqlar nümayiş etdirilmişdir. Eyni zamanda, respublikanın hakim korpusu üçün də belə təqdimatlar təşkil olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət İşləri üzrə Kollegiyasının, Bakı, Sumqayıt, Gəncə, Şəki, Şirvan Apelyasiya Məhkəmələrinin sədrlərinin, onların hakimlərinin, habelə həmin apelyasiya məhkəmələrinin yurisdiksiyasına aid olan rayon məhkəmələrinin sədrləri və hakimlərinin iştirak etdikləri tədbirlərdə elektron qolbaqlar, habelə elektron nəzarətin həyata keçirilməsi proseduru nümayiş etdirilməklə, təcrübədə onların tətbiqi ilə bağlı məsələlər müzakirə edilmiş, bu sahədə işin səmərəli həyata keçirilməsi, məhkəmələr tərəfindən məhkumlara elektron nəzarət vasitələri tətbiq olunarkən müvafiq məhdudiyyətlərin müəyyən edilməsi ilə bağlı zəruri məlumatlar verilmişdir. Qeyd olunmalıdır ki, azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş, məhkəmənin müəyyən etdiyi hallarda şərti məhkum olunmuş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiq edilməsi həmin cəzaların icrasına effektiv nəzarət olunmasına əlverişli şərait yaratmışdır. Cari ilin noyabr ayının əvvəlinə 450-dən artıq məhkuma elektron qolbaq tətbiq edilmiş və Probasiya xidmətinin Monitorinq mərkəzi tərəfindən həmin şəxslərə fasiləsiz nəzarət həyata keçirilir.

Ölkəmizdə Probasiya xidmətinin yaradılması, habelə məhkumlara elektron nəzarət vasitələrinin tətbiqi ilə probasiya nəzarətinin həyata keçirilməsi beynəlxalq təşkilatların və xarici ölkələrin diqqətini cəlb edir. Cari ilin avqust ayında Bakıda Avropa İttifaqı ilə birgə həyata keçirilən "Azərbaycanda ədliyyə sisteminin inkişafına və cinayət işləri üzrə məhkəmə qərarlarını icra edən qurumların göstərdiyi xidmətlərin təkmilləşdirilməsinə dəstək" adlı layihə çərçivəsində elektron monitorinqin təşkil edilməsi və həyata keçirilməsi mövzusunda keçirilən seminarda bu sahədə ölkəmizdə qısa müddətdə görülmüş işlər təqdirəlayiq hesab olunmuşdur. Tədbirdə iştirak etmiş xarici ekspertlər Probasiya xidmətinin Monitorinq mərkəzi ilə tanış olmuş, müvafiq elektron nəzarət sisteminin və proqram təminatının imkanlarını yüksək qiymətləndirmişlər.

Dövlət başçısının qəti siyasi iradəsi sayəsində qısa müddətdə ölkəmizdə probasiya institutunun tətbiqinə nail olunmasının nəticəsidir ki, cari ilin oktyabr ayında Birləşmiş Ərəb Əmirliklərinin Baş Polis İdarəsinin məsul nümayəndəsi məhkumlara elektron nəzarət vasitələrinin tətbiqi təcrübəsini öyrənmək məqsədilə ölkəmizə səfər etmiş, Probasiya xidmətinin Monitorinq mərkəzinin fəaliyyəti ilə tanış olmuş, gələcəkdə Azərbaycanın bu sahədəki təcrübəsindən faydalanmaq niyyətində olduğunu bildirmişdir.

Ədliyyə Nazirliyinin digər fəaliyyət istiqamətləri ilə yanaşı, probasiya sahəsində də gördüyü işlər ölkə Prezidenti cənab İlham Əliyevin elan etdiyi "Azərbaycan Xalq Cümhuriyyəti ili" çərçivəsində ikiqat sevinc hissi ilə qeyd etdiyimiz Azərbaycan ədliyyəsinin 100 illik yubileyi ilə əlamətdar olan ədliyyə işçilərinin builki peşə bayramına dəyərli töhfədir. Əminliklə söyləyə bilərik ki, ədliyyə işçiləri bundan sonra da üzərlərinə düşən vəzifələrin layiqincə yerinə yetirilməsi, o cümlədən ölkəmiz üçün yeni olan probasiya institutunun fəaliyyətinin təkmilləşdirilməsi və işinin beynəlxalq tələblərə uyğun qurulmasına yönəlmiş tədbirləri uğurla davam etdirmək əzmindədir.

**Akşin ZİYADOV,**
**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya xidmətinin rəisi,**
**Baş probasiya məmuru, baş ədliyyə müşaviri.**

## Azərbaycan ədliyyəsi inkişaf edir

Azərbaycan ədliyyə sistemi yüz il ərzində şərəfli yol keçmişdir. 1918-ci ildə müsəlman şərqində ilk dəfə müstəqillik qazanan Azərbaycanda həmin andan Ədliyyə Nazirliyi təsis edildi. Həmin il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının əsasnaməsi, noyabr ayının 22-də isə Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq olunmuşdur. O dövrdə gənc, müstəqil Azərbaycan Respublikası çətin bir şəraitdə fəaliyyət göstərirdi. Ədliyyə Nazirliyində kadr çatışmazlığına baxmayaraq yenicə müstəqillik əldə etmiş Azərbaycanda ədliyyə sistemi formalaşmış, ölkədə qayda-qanun yaradılmış, yeni hüquqi sistem təşkil olunmuş, savadlı hüquqşünaslar hazırlanmış və əsasən əhalinin bu istiqamətdə maarifləndirilməsi çətinliklə olsa da həyata keçirilmişdir. Cəmi 23 aydan sonra o zaman qızıl ordu adlanan rus şovinistləri Azərbaycan Xalq Cümhuriyyətini süquta uğratdılar. İnqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilərək Xalq Ədliyyə Komissarlığı yaradıldı. Komissarlığın səlahiyyətinə aşağıdakılar daxil edilmişdir: Qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik etmək, qanunçuluğa ali nəzarət və istintaqın aparılması. 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyası digər strukturlara verilmişdir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycana rəhbər təyin olunmasından sonra bütün sahələrdə olduğu kimi ədliyyə sistemində də köklü islahatlar aparıldı. Azərbaycan SSR Ali Sovetinin 27 oktyabr 1970-ci il qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq fəaliyyət göstərməsi üçün şərait yaradılmışdır. Azərbaycanın ikinci dəfə müstəqilliyinin ilk illərində digər sahələrdə olduğu kimi ədliyyə sistemi də yarıtmaz şəkildə fəaliyyət göstərirdi. 1993-cü ildə xalqın israrlı təkidi ilə hakimiyyətə gəlmiş Azərbaycanın memarı və qurucusu Heydər Əliyev ölkənin tərəqqisini təmin etdi. Ədliyyə işçilərinin ictimaiyyətdə nüfuzunun qaldırılması və bu sistemin inkişafını təmin edən vacib islahatlar aparıldı. Beləliklə, müstəqil Azərbaycan ədliyyəsi cəmiyyətdə layiqli yerini tutdu. Heydər Əliyevin imzaladığı 11 noyabr 2000-ci il tarixli sərəncamla Ədliyyə Nazirliyinin əsasnaməsi təsdiq edildi. Elə həmin gün 22 Noyabr — Azərbaycan Respublikası Ədliyyə İşçilərinin Peşə Bayramı günü kimi təsis edildi.

Bu gün ulu öndərin siyasi kursunu ləyaqətlə davam etdirən dövlətimizin başçısı cənab İlham Əliyevin sonsuz qayğısı nəticəsində Azərbaycan Ədliyyəsi böyük nailiyyətlər əldə etmişdir. Ədliyyə sistemində işə qəbul şəffaf şəkildə həyata keçirilir. Şəffaflığın təmin olunması üçün əhaliyə göstərilən bütün növ xidmətlərin elektron qaydada həyata keçirilməsinə münbit şərait yaradılır. Qeyd etmək lazımdır ki, respublika Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ədliyyə işçilərinin normal fəaliyyətinin təmin olunması istiqamətində mühüm işlər görülmüşdür. Yeni inzibati binaların inşası və ya əsaslı təmir olunması, bütün zəruri avadanlıqlarla təminatı, eləcə də əməkdaşların maddi rifah halının yaxşılaşdırılması əsas götürülür. Eyni zamanda bu sahədə çalışan insanların əməyinin dövlət tərəfindən qiymətləndirilməsi, qabaqcıl ədliyyə işçilərinə fəxri adların verilməsi, onların orden və medallarla təltif olunması daim diqqət mərkəzində saxlanılır.

Qeyd etmək lazımdır ki, əvvəllər Tovuz Rayon Qeydiyyat Şöbəsi uyğunsuz binada yerləşirdi. 2017-ci ilin may ayında Tovuz Rayon Qeydiyyat Şöbəsi əməkdaşlarının normal fəaliyyət göstərməsi üçün müasir standartlara cavab verən inzibati bina istifadəyə verilmişdir. Bina İKT sistemi ilə təchiz olunmuşdur. Burada 110 m² sahəsi olan təntənəli nikah zalı, 90 m² sahəsi olan vətəndaşların gözləmə zalı və digər zəruri otaqlar fəaliyyət göstərir. Yaradılan şəraitdən istifadə edən Tovuz Rayon Qeydiyyat Şöbəsinin əməkdaşları vətəndaşlara göstərdikləri xidmətləri daha mükəmməl icra edəcəklərini qarşılarına məqsəd qoymuşlar.

**Kifayət İSMAYILOVA,**
**Tovuz Rayon Qeydiyyat Şöbəsinin rəisi,**
**Kiçik ədliyyə müşaviri.**

## Şanlı tarixi yaşatmaq daha uğurlu sabaha aparır

Yüz il bundan öncə - 1918-ci ilin may ayının 28-də müsəlman Şərqində ilk olaraq yaranan Azərbaycan Xalq Cümhuriyyəti ölkəmizin çoxəsrlik sosial-iqtisadi, ictimai siyasi və mədəni inkişafının, xalqımızın milli oyanışı və dirçəlişi proseslərinin məntiqi nəticəsi, xalqın siyasi şüur səviyyəsinin, intellektual və mədəni potensialının, yüksək istedad və qabiliyyətinin göstəricisi idi. Müstəqil dövlətimizin ədliyyə tarixinin ən şərəfli anları da 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə başlayıb. Başqa sözlə, elə həmin gün Ədliyyə Nazirliyinin təsis olunmasına böyük ehtiyac olduğundan və buna yüksək əhəmiyyət verilərək Ədliyyə Nazirliyi də yaradılmışdır. Qeyd edək ki, bir əsrlik tarixə bərabər dövrdə ədliyyə sisteminin daha da formalaşması, fəaliyyət dairəsinin daha da genişləndirilməsi istiqamətində çoxlu sayda qanunlar, qərarlar qəbul edilmişdir. Bu sistem çoxlu enişli-yoxuşlu yolların yolçusu olmuşdur. Ədliyyə bu yollarda ən böyük uğura, fəaliyyət dairəsinə xas olan bütün vəzifələrin icrasına yalnız ulu öndər Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərliyə gəlişindən sonra nail ola bilmişdir. Azərbaycan Ədliyyəsi məhz qeyd olunan bu şərəfli illərdə özünü təkmil bir struktur kimi formalaşdırmağa başlamışdır. Azərbaycan Xalq Cümhuriyyəti ilində, Azərbaycan ədliyyəsinin 100 illiyi qarşısında bu sistemin şanlı tarixinin inkişaf xronikasına qısa da olsa, nəzər salmaq yerinə düşər.

Yuxarıda qeyd etdiyimiz kimi, Ədliyyə Nazirliyi Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün — 1918-ci ilin may ayının 28-də təsis olunmuşdur. Eyni zamanda, həmin tarixdə ədliyyə orqanları və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmişdir. 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir.

AXC süqut etdikdən sonra İnqilab Komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılmışdır. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluğa, Ali Məhkəməyə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

1933-cü ildə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, onun səlahiyyətinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sistemin idarə olunması, məhkəmə və prokurorluq orqanlarına və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir. 1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri xeyli məhdudlaşdırılmışdır. Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis olunaraq onun sabit fəaliyyəti təmin olunmuşdur.

Azərbaycan ədliyyəsi ölkəmiz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra da ulu öndər Heydər Əliyevin diqqətindən kənarda qalmamış, onun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ədliyyə sisteminin inkişafı istiqamətində əsaslı dəyişikliklər olmuşdur.

Ulu öndərin 11 noyabr 2000-ci il tarixdə imzaladığı Sərəncamla Müstəqil Azərbaycan Ədliyyə Nazirliyinin 1918-ci ildə ilk Əsasnaməsinin təsdiq edildiyi gün 22 noyabr Azərbaycan Respublikası ədliyyə işçilərinin peşə bayramı günü kimi qeyd edilmişdir.

2006-cı ildə ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ədliyyə orqanlarının fəaliyyəti ilə bağlı bir sıra mühüm sənədlər qəbul olunmuş, strukturu təkmilləşdirilmişdir. Dövlət başçısının 18 aprel 2006-cı il tarixli Fərmanı ilə Ədliyyə Nazirliyi haqqında yeni əsasnamə təsdiq edilərək ona hüquq-mühafizə orqanı statusu verilmiş, habelə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının 26 may 2006-cı il tarixli Qanunu qəbul olunmuş və ölkə Prezidenti tərəfindən "Ədliyyə orqanlarının inkişafı haqqında" 17 avqust 2006-cı il tarixli Fərman imzalanmışdır.

İqtisadi və hüquqi proseslərin tənzimlənməsində qeydiyyat və notariat orqanlarının da fəaliyyəti zəruri prosedurdur. Bunun əhəmiyyəti nəzərə alınaraq həmin orqanlarda da əsaslı islahatlar keçirilməsi üçün hüquqi baza yaradılmış, "Ailə Məcəlləsi", "Notariat haqqında qanun" və digər qanunvericilik aktları qəbul edilmişdir. Bu bazaya söykənərək biz bu gün qarşıya qoyulan vəzifələrin layiqincə icra olunmasına nail oluruq. Qəbələnin bugünkü sosial-iqtisadi inkişafı, dünyaya çıxışı, bölgəmizdə sağlam, işgüzar, saf mühitin qorunması və sabahın fəal qurucularının yetişdirilməsi üçün öz səlahiyyətlərimiz daxilində, mövcud qanunların, qərarların icrası ilə bağlı əlimizdən gələni əsirgəmirik.

**Zinyət BAĞIROVA,**
**Qəbələ Rayon Qeydiyyat Şöbəsinin rəisi.**

9 Noyabr Dövlət Bayrağı Günüdür

# BAYRAĞIMIZ-FƏXRİMİZ, ŞƏRƏFİMİZ VƏ QÜRUR MƏNBƏYİMİZDİR

**Hər bir xalqın dövlət rəmzlərindən olan bayraq onun varlığının, mövcudluğunun sübutu, dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricilərindən biridir. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mücadiləsinin, təfəkkür və düşüncə tərzinin, mənəvi dünyasının göründüyü ən şəffaf və dəqiq meyarıdır. Azərbaycan xalqının azadlığını, suverenliyini, öz istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini tərənnüm edən üçrəngli bayrağı xalqımızın azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyini nümayiş etdirir. Məhz onun üçün də atributlardan məna və məzmun etibarilə ən güclü təsir qüvvəsinə malik olan rəmz - məhz Bayraqdır. O bayraq ki, xalqın öz düşüncəsində daşıdığı idealları, onun milli mənsubiyyətini, siyasi dünyagörüşünün miqyasını, bir sözlə, millətin bütün özünəməxsus keyfiyyətlərin məcmusunu xarakterizə edir. Lakin tarixi həqiqət ondan ibarətdir ki, ən ali dəyərlərini özündə ehtiva edən bayrağını dalğalandıra bilmək hər xalqa nəsib olmur. Bu baxımdan Azərbaycan xalqı xoşbəxtdir. Dövlətçilik ənənələri hələ antik dövrlərdə mövcud olmuş etnik-siyasi özünütəşkil mədəniyyətinə söykənən Azərbaycan xalqının bu gün müstəqil bayrağa malik olması da onun xoşbəxtliyi və həm də mənəvi haqqıdır. Çünki o bayrağı yenidən dalğalandıra bilmək səadəti - xalqımızın azadlığa bəslədiyi sevgidən qaynaqlanan əzmkar və davamlı mübarizəsi ilə gerçəkliyə dönmüşdür..**

Azərbaycanın Dövlət Bayrağı 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin iclasında qəbul edilib və 1920-ci ilin aprel ayının 28-dək dövlət statusuna malik olub. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və sovet hakimiyyəti qurulduqdan sonra bayrağımız düz yetmiş il ərzində unudulmadı, ürəklərdə yaşadıldı, xatirələrdə canlandırıldı, yaddaşlarda dərin iz buraxdı.

1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana və böyük siyasətə qayıdışı Naxçıvanda başlanan milli dirçəliş prosesinin bütün Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olunmağa başlamışdı. Xalqımızın təfəkkür və mənəvi dünyasının meyarı olan üçrəngli bayrağımız ikinci dəfə sovet hakimiyyətinin hələ mövcud olduğu dövrdə Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyevin rəhbərliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bərpa edildi, qədim Azərbaycan diyarı Naxçıvanda dövlət bayrağı olaraq qəbul edildi, yüksəklərə ucaldıldı. Beləliklə, çağdaş dövrümüzün müdrik siyasi xadimi ulu öndər Heydər Əliyev üçrəngli bayrağımızı yaşatmaq məqsədi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırılması üçün gərgin iş gördü, Azərbaycan Respublikası Ali Soveti 1991-ci il fevralın 5-də "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi və bu aktla milli bayrağımız Azərbaycan üzərində dalğalanmağa başladı.

Bu tarixi hadisələri dəyərləndirən ümummilli lider Heydər Əliyevin söylədiyi fikirlər diqqətəlayiqdir: "Tariximizin hər bir səhifəsi - istər lap qədim dövrə, orta əsrlərə, istərsə də XIX əsrə, XX əsrə aid olsun, - bizim üçün qiymətlidir". Naxçıvanda Xalq Cümhuriyyətinin bayrağının dövlətimizin bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırdı və ölkəmizdə gedən proseslərə güclü təkan verdi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olunduqdan sonra Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət Bayrağını bərpa etdi. İlk olaraq Türkiyə Cümhuriyyəti ölkəmizin müstəqilliyini tanıdı. Böyük öndər Qazi Mustafa Kamal Atatürkün vaxtilə söylədiyi "Azərbaycan bayrağının Türkiyə bayrağı yanında Türkiyə səmasında dalğalanmasını görmək bütün millətimiz üçün böyük bir bayramdır" sözləri artıq həqiqətə çevrildi... İndi təkcə Türkiyənin deyil, dünyanın bir çox dövlətlərinin səmasında ölkəmizin səfirliklərinin binaları üzərində Azərbaycan bayrağı - müstəqilliyimizin müqəddəs rəmzi dalğalanır...

Dövlət Bayrağı dövlətin rəsmi fərqləndirici əlamətidir. Konstitusiyanın 75-ci maddəsinin birinci bəndində qeyd olunur ki, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Bundan əlavə, ulu öndər Heydər Əliyevin ölkə başçısı kimi 1998-ci il 13 mart tarixli "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncamı dövlət atributlarının təbliği baxımından mühüm əhəmiyyət daşımışdır. "Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Gərək hər bir evdə Azərbaycan dövlətinin bayrağı olsun, hər bir ailə Azərbaycan bayrağına itaət etsin. Bu bayraq gərək hər bir ailənin həyatının əziz bir hissəsi olsun" — deyə ulu öndər Heydər Əliyev çıxışlarında dəfələrlə bildirmişdir.

2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirildi. Xüsusilə qeyd etmək lazımdır ki, Azərbaycan bir çox nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Avropa Şurasının tamhüquqlu üzvüdür. Üçrəngli milli bayrağımız Avropanın mərkəzində dalğalanır, bizim varlığımızı, qüdrətimizi, gücümüzü bütün dünyaya nümayiş etdirir. Dahi şəxsiyyət, ümummilli lider Heydər Əliyev Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ilə bağlı keçirilən təntənəli mərasimdəki çıxışında milli bayrağımızın çox böyük önəm daşıdığını qeyd edərək demişdir: "Bu dəqiqələrdə biz tarixi anlar yaşayırıq. Az sonra Azərbaycanın bayrağı Avropa Şurası sarayının önündə dalğalanacaqdır. Bu bayrağın rənglərindən birinin mənası müasirləşmək, yəni avropalaşmaqdır. Xoşbəxtik ki, hamımızın ümumi səyləri ilə bayrağımız bir daha öz həqiqi mənasına qovuşdu, öz həqiqi yerini tapır".

Azərbaycanın Dövlət Bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində, o cümlədən beynəlxalq təşkilatlarda ucalır, mühüm tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq müstəqilliyimizi və milli birliyimizi təcəssüm etdirir. Praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyevin respublikamızın dövlət atributlarına, o cümlədən üçrəngli bayrağımıza göstərdiyi böyük ehtiram, bu məqsədlə həyata keçirilən tədbirlər ölkəmizdə milli həmrəyliyin daha da möhkəmlənməsinə, azərbaycançılıq məfkurəsinə və dövlət rəmzlərinin təbliğinə xidmət edən başlıca amillərdir. Azərbaycan Respublikasının Dövlət Bayrağının Azərbaycan vətəndaşlarının milli həmrəyliyinin, vahid məfkurə ətrafında sıx birləşmələrinin başlıca amillərindən biri olduğunu nəzərə almaq və onun təbliğinin daim diqqət mərkəzində saxlanılmasını təmin etmək məqsədilə Bakı şəhərində, Xəzərin sahilində Dövlət Bayrağı Meydanının yaradılması da Prezident İlham Əliyevin dövlət atributlarına olan yüksək ehtiramının ən gözəl nümunəsidir. Bununla bağlı ölkə Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də Sərəncam imzalamış, özünün iştirakı ilə 2007-ci il dekabrın 30-da Bakının Bayıl qəsəbəsində — Hərbi Dəniz Qüvvələrinin bazası yaxınlığında Dövlət Bayrağı Meydanının təməli qoyulmuşdur. Meydan üçün seçilmiş yer dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan yaradır, Xəzər dənizinin nəğməli sahilində qürurla dalğalanır, bütün dünyaya müstəqil Azərbaycan dövlətinin varlığını bəyan edir.

Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə ölkə Prezidenti cənab İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında" Sərəncam imzalamışdır. Bu sərəncamla hər il noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. Bəli, Bayrağımız tariximizin şanlı səhifəsidir. Ona görə ki, milli həmrəyliyin yaradılması və qorunmasında, ölkəmizin beynəlxalq müstəvidə tanınmasında milli bayrağımız mühüm əhəmiyyət kəsb edir. Ginnes dünya rekordları təşkilatı 2010-cu il mayın 29-da Azərbaycanın dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib. Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış bürüncdən hazırlanıb. Bu dövlət rəmzləri Bayraq Meydanının görkəminin möhtəşəmliyini daha da artırmış, onun ümumi görünüşünə əlavə çalarlar qataraq, meydana xüsusi gözəllik, füsunkarlıq verir.

Dövlət Bayrağı Meydanının açılışı dünya dövlətlərində yaşayan həmyerlilərimiz tərəfindən hədsiz sevinc və qürur hissi ilə qarşılanıb. ABŞ-da yaşayan həmyerlilərimiz Vaşinqtondakı Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzinə toplaşaraq, bu tarixi hadisəni mavi ekran qarşısında izləmişlər. Fərəhli haldır ki, dünyanın bir çox aparıcı və nüfuzlu telekanalları ölkəmizdə həyata keçirilən islahatları, yenidənqurma işlərini, sosial-iqtisadi inkişaf strategiyasını yüksək qiymətləndirmişlər. Böyük Britaniyanın BBC telekanalı da ölkəmizdəki dinamik inkişafı yüksək qiymətləndirərək, Dövlət Bayrağı Meydanının açılışı haqqında süjet hazırlamışdır. BBC telekanalının hazırladığı bu süjetdə dünyanın ən hündür bayraq qülləsinin məhz Azərbaycanda ucaldıldığı önə çəkilir, eyni zamanda bildirilir ki, Bakıda tikilən bayraq qülləsi Misirdəki Xeops piramidası və Londondakı "Londonun gözü" adlı mənzərə çarxından hündürdür. Süjetdə 2,5 min kvadratmetr ərazini əhatə edən qüllənin Ginnesin rekordlar kitabına düşdüyü barədə də məlumət verilib. Dünyanın maraq dairəsinə çevrilən bu tarixi hadisə onu göstərir ki, daim yüksək zirvələrdə dalğalanan üçrəngli bayrağımız gün gələcək ki, işğal altında qalan torpaqlarımızda əzəmətlə dalğalanacaqdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə möhtəşəm Dövlət Bayrağı Muzeyi də yaradılıb. 2010-cu il sentyabrın 1-də Dövlət Bayrağı Meydanının təntənəli açılış mərasimində çıxış edən ölkə Prezidenti cənab İlham Əliyevin bayrağımızla bağlı fikirləri olduqca qürurvericidir. Dövlətimizin başçısı deyib: "Bayraq Meydanı Bakının bir mədəniyyət mərkəzinə, Azərbaycanın bir siyasi mərkəzinə çevriləcəkdir. Ölkəmizin mərkəzi olan Bakı şəhərində belə möhtəşəm meydanın yaradılması, doğrudan da, böyük hadisədir. Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq".

Fəxarət hissi ilə demək olar ki, dünyanın müxtəlif ölkələrində keçirilən müxtəlif idman yarışlarında ölkəmizi təmsil edən idmançıların uğurlu nəticələrə imza atması, onların fəxri kürsünün ən yüksək pilləsinə qalxması, üçrəngli milli bayrağımızın dalğalanması harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının qəlbində qürur hissi doğurur.

Bu gün Azərbaycan iqtisadi inkişaf tempinə görə dünyanın inkişaf etmiş ölkələri sırasında durur. Düz 27 ildir ki, müstəqil ölkə kimi yaşayırıq. Təməli görkəmli siyasi xadim əbədiyaşar Heydər Əliyev tərəfindən qurulmuş, bütün çətin sınaqlardan üzüağ, şərəflə çıxmış və düşünülmüş inkişaf stradegiyası nəticəsində, praqmatik dövlət başçısı cənab İlham Əliyev tərəfindən güclü, gözəl, qüdrətli, dinamik və davamlı dövlət yaradılmışdır. Elə bir dövlət ki, burada bütün azadlıqlar mövcuddur. Təhlükəsizlik, sosial rifah, iqtisadi inkişaf təmin edilir. Burada bütün xalqların, millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, mehribanlıq, dostluq şəraitində ömür sürürlər. Ölkəmizdə milli-dini dözümlülük yüksək səviyyədədir və indi Azərbaycan bu məsələlərdə başqalarına nümunə kimi göstərilir. Bu gün Azərbaycan öz gücünə arxalanan, bütün tərəfdaşları ilə münasibətləri qarşılıqlı hörmət və ehtiram prinsipləri əsasında qurmağa çalışan, dinamik inkişaf edən gənc və eyni zamanda, təcrübəli bir ölkədir. Azərbaycanın təşəbbüsləri, irəli sürdüyü layihələr səmərə verir, həm bizə, həm də tərəfdaşlarımıza xeyir gətirir. İftixarla qeyd olunmalıdır ki, ölkəmiz müstəqil siyasət aparır. Azərbaycan xalqı öz taleyinin sahibidir. Bu, böyük xoşbəxtlikdir, tükənməz sərvətdir. Azərbaycan cəmiyyətində vahid həmrəylik, milli səfərbərlik, vətənpərvərlik ruhu yüksəkdir. Ölkəmizdə gənc nəsil bu ruhda tərbiyə olunur. Gənclərimiz hər an Vətən yolunda hətta canlarından keçməyə hazır olan vətəndaşlar kimi yetişirlər. Eyni zamanda, ölkəmiz Cənubi Qafqazda öz liderlik mövqeyini ləyaqətlə qoruyub saxlayır. Xalqımız öz əziz bayramını - Dövlət Bayrağı Gününü müxtəlif sahələrdə qazanılan uğurlu nailiyyətlərlə qeyd edir. Milli bayrağımız dünyanın 180-dən çox dövlətinin bayraqları ilə bir sırada dalğalanmaqdadır. Üçrəngli bayrağımız Azərbaycanımızın müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin, mənəvi dünyasının rəmzidir. Hər bir Azərbaycan vətəndaşı bayrağımıza ehtiram göstərir, bunu özünün müqəddəs borcu kimi qəbul edir. Azərbaycan əsgəri də Vətənin suverenliyinin və ərazi bütövlüyünün qorunması ilə bağlı ali missiyanı öz üzərinə götürərkən üçrəngli bayrağa and içir. Əminik ki, üçrəngli bayrağımız hər zaman əbədi olacaq, bütün dünyada Azərbaycan dövlətinin və xalqının imzasını qürurla təsdiqləyəcək. Ölkənin hər bir yerində Dövlət Bayrağı dalğalanır. Biz əminik ki, tezliklə haqq, ədalət zəfər çalacaq.

Cəmiyyətimizdə milli özünüdərk amalının, həmrəylik duyğularının, milli maraqlarımız uğrunda mübarizə əzminin yüksəlişi onu deməyə əsas verir ki, xalqımızın ürəyi döyündükcə, milli bayrağımız da dalğalanacaqdır. Çünki bayrağımız - milli vəhdətimizin rəmzidir. Bu vəhdət bizim üçrəngli bayrağımızı daha uca zirvələrə qaldıracaq və onu ata yurdumuz Qarabağa, Şuşaya və Xankəndinə daşıyacaqdır. Azərbaycanın əbədi varlığını təcəssüm etdirən Bayrağımız nəinki bir daha enməyəcək, müstəqilliyimizin və tərəqqimizin ulduzu kimi daim parlayacaqdır.

**İbrahim CƏFƏROV,**
**Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru,**
**AMEA-nın müxbir üzvü, professor.**



## Azərbaycan bayrağı

**Zəfərlər çoxsaylı, uğurlar min-min,**
**Xoşdur xəbərləri hər ayın, ilin;**
**Rəmzidir dövlətin, müstəqilliyin**
**Üçrəngli bayrağı Azərbaycanın!**

**Bütün xarüqələr mötəbər, təzə,**
**Ruh, inam, güc verir hər birimizə;**
**Doğmadır, əzizdir həmişə bizə**
**Üçrəngli bayrağı Azərbaycanın!**

**İgidlər vətənin şah vüqarıdır,**
**Çoxalan bərəkət zəhmət barıdır.**
**Azad Cümhuriyyət yadigarıdır**
**Üçrəngli bayrağı Azərbaycanın!**

**Qitədən-qitəyə yeni yol salır,**
**Odlar diyarından Qərb də od alır;**
**Yüzdən çox ölkədə göyə ucalır**
**Üçrəngli bayrağı Azərbaycanın!**

**Hər şəhid məzarı - sönməyən ocaq,**
**Ziyarət - möhtəşəm, gül qucaq-qucaq;**
**Əsrlər boyunca dalğalanacaq**
**Üçrəngli bayrağı Azərbaycanın!**

**Firad FUADOĞLU.**

# Dövlət bayrağımız xalqımızın kimliyini, azadlıq mücadiləsini, təfəkkür və düşüncə tərzini əks etdirir

**Qubadlı Rayon İcra Hakimiyyəti və YAP Qubadlı rayon təşkilatı 9 Noyabr - Dövlət Bayrağı Günü münasibətilə birgə tədbir keçiriblər.**



Rayonun idarə, müəssisə və təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri əvvəlcə Sumqayıt şəhərində yerləşən Bayraq Muzeyini ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, rayon icra hakimiyyəti başçısının müavini, YAP Qubadlı rayon təşkilatının sədri Allahverdi Haxverdiyev Dövlət Bayrağı gününə həsr olunmuş tədbirdə çıxış edərək, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisində müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın dalğalandığını bildirib. Qeyd edib ki, Naxçıvanda Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırdı və ölkəmizdə gedən proseslərə güclü təkan verdi. O, bayrağımızın yaranma tarixi və əhəmiyyətindən danışaraq, Dövlət Bayrağı gününün təsis edilməsini mühüm hadisə adlandırıb. "Dövlət bayrağımız həm də xalqımızın kimliyini, azadlıq mücadiləsini, təfəkkür və düşüncə tərzini, mənəvi dünyasını əks etdirir. Artıq üçrəngli bayrağımız ölkəmizin hər şəhərində, rayonunda qürurla dalğalanır, bütün dünyaya müstəqil dövlətimizin varlığını bəyan edir", - deyə rayon icra hakimiyyəti başçısının müavini bildirib.

"Ümummilli lider Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin apardığı məqsədyönlü və uzaqgörən siyasət bizi öz doğma torpaqlarımıza qaytaracaq", - deyən natiq dövlət bayrağımızın Şuşada, Xankəndidə, Qubadlıda və digər işğal olunmuş rayonlarımızda dalğalanacağına əminliyini ifadə edib.

Əməkdar müəllim Ədalət Əsədov çıxışında bildirib ki, Azərbaycanın dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində, o cümlədən beynəlxalq təşkilatlarda dalğalanır, mühüm tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq müstəqilliyimizi və milli birliyimizi təcəssüm etdirir.

Tədbirdə məktəblilərin ifasında Ulu Öndərə, dövlət bayrağına və Vətənə həsr olunan şeirlər səsləndirilib.

**AZƏRTAC**

# DTX-də Dövlət Bayrağı gününə həsr olunmuş tədbir keçirilib



**Noyabrın 8-də Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) Azərbaycanın dövlət bayrağının qəbul edilməsinin 100 illiyinə və 9 noyabr - Dövlət Bayrağı Gününə həsr olunmuş tədbir keçirilib.**

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycanın Milli Qəhrəmanı, general-polkovnik Mədət Quliyev şəxsi heyəti əlamətdar gün münasibətilə təbrik edib, dövlət bayrağının hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi, müstəqil dövlətimizin şərəfi, qüdrətinin rəmzi olduğunu və gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında böyük rol oynadığını vurğulayıb.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi qeyd edib ki, müasir müstəqil Azərbaycanın qurucusu ümummilli lider Heydər Əliyevin təşəbbüsü və əvəzsiz səyləri ilə Azərbaycan Xalq Cümhuriyyətinin ülvi yadigarı, 1990-cı ilin noyabrında Naxçıvan Muxtar Respublikasında ikinci dəfə təsdiq edilmiş üçrəngli dövlət bayrağı rəsmi dövlət rəmzi olmaqla yanaşı, milli həmrəyliyin, azərbaycançılıq məfkurəsinin ətrafında bütün vətənpərvər soydaşlarımızın sıx birləşməsinin başlıca amillərindəndir. Prezident İlham Əliyev tərəfindən böyük uzaqgörənliklə Dövlət Bayrağı Gününün təsis edilməsi, dövlətimizin başçısının bilavasitə göstərişi ilə paytaxt Bakıda və respublikamızın bölgələrində dövlət bayrağının vüqarla dalğalanması üçün yaradılmış və Prezidentin şəxsən iştirakı ilə istifadəyə verilən möhtəşəm meydanlar, muzeylər və komplekslər qəlbi hər zaman Azərbaycanla döyünən vətəndaşların qürur, and və milli özünüdərk yeridir.

General-polkovnik Mədət Quliyev Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi ilə dövlət bayrağının Azərbaycanın bütün tarixi və əzəli torpaqlarında daim zirvələrdə dalğalanacağını bildirərək, şəxsi heyətə Vətənin zəfərləri və qüdrətlənməsi naminə xidmətdə müvəffəqiyyətlər arzulayıb.

Azərbaycanın müstəqillik rəmzi olan dövlət bayrağının ilk dəfə yaranması tarixindən danışan DTX-nin Heydər Əliyev adına Akademiyasının professoru, filologiya elmləri doktoru Cəlal Qasımov diqqətə çatdırıb ki, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə üçrəngli bayrağımız 1990-cı il noyabrın 17-də ilk dəfə Naxçıvanda ucaldılıb. Bu addım ölkə əhalisi tərəfindən tarixi və mütərəqqi hadisə kimi dəyərləndirilir.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2009-cu il 17 noyabr tarixli Fərmanı ilə noyabrın 9-u ölkəmizdə Dövlət Bayrağı Günü elan edilib. Ən müqəddəs rəmzlərdən olan bayraq xalqın varlığının sübutu, müstəqil dövlət qurmaq və ona sahib çıxmaq bacarığının əsas göstəricisidir. Ona görə də özünütəsdiq simvolu olan bayraq bütün dünyada qürur və güvənc yeri sayılır. Bayraq həm də dövlətin və xalqın kimliyinin, apardığı azadlıq mübarizəsinin, təfəkkür və düşüncə tərzinin ən bariz ifadəsidir. Məhz bu baxımdan xalqımızın azadlığını, istiqlalı uğrunda apardığı mübarizəni, milli kimliyini, ölkənin suverenliyini və yüksəlişini tərənnüm edən üçrəngli dövlət bayrağımız hər bir vətənpərvər azərbaycanlının qürur mənbəyidir.

**AZƏRTAC**

# Bostonda Azərbaycanın Dövlət Bayrağı Günü təntənəsi

**ABŞ-ın ən böyük və tarixi şəhərlərindən olan, ölkənin təhsil mərkəzlərindən biri kimi tanınan Boston şəhərində Azərbaycanın Dövlət Bayrağı Günü ilə bağlı tədbir keçirilib.**



Azərbaycan icmasının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Elin Süleymanov çıxış edərək bunun Cümhuriyyətimizin 100 illik yubileyi ilə bağlı silsilə tədbirlər çərçivəsində növbətisi olduğunu qeyd edib.

Müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin mirası olan bayrağın 100 il öncə Cümhuriyyət qurucuları tərəfindən ucaldılmasından danışan səfir Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra bir daha onun ölkəmizin rəmzinə çevrildiyini vurğulayıb. O, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində Prezident İlham Əliyev tərəfindən atılan məqsədyönlü addımları xüsusi vurğulayıb. Hazırda Bostonda keçirilən ABŞ-Xəzər İnnovasiya Forumuna diqqət çəkən səfir bu forumun Prezident İlham Əliyevin innovasiya siyasətinin uğurunun göstəricisi olduğunu qeyd edib. O, bu günlərdə İnnovasiya Agentliyinin təsis edilməsinin dövlətimizin başçısının innovasiya sahəsinin inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Daha sonra Yüksək Texnologiyalar Parkının direktoru Tural Kərimli çıxış edərək Azərbaycanda innovativ texnologiyaların inkişafı üçün atılan addımlardan, startap ekosisteminin inkişafı üzrə görülən işlərdən, aparılan islahatlardan danışıb.

Bostonda yaşayan Azərbaycan icmasının nümayəndəsi Mirkamran Abdullayev çıxış edərək Dövlət Bayrağı Gününün hər bir azərbaycanlı üçün önəmindən bəhs edib.

Qeyd edək ki, bu tədbirin təşkil edildiyi gün Azərbaycandan gəlmiş geniştərkibli nümayəndə heyətinin iştirakı ilə birinci ABŞ-Xəzər İnnovasiya Forumu keçirilib.

**AZƏRTAC**

# Əsas vəzifəmiz Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə etimad göstərmiş gənclərə keyfiyyətli təhsil verməkdir

**Azərbaycanda ali təhsil almaq hər bir gəncin əsas hədəflərindən biridir. Əvvəllər gənclərimiz əsasən humanitar, tibb sahələrinə maraq göstərirdilərsə, hazırda onlar mühəndis ixtisaslarına daha çox maraq göstərirlər. Azərbaycan Respublikasında sənayenin və iqtisadiyyatın diversifikasiyası, neft, kimya, maşınqayırma, İKT kimi sektorların sürətli inkişafı gənclərin ali təhsillə bağlı prioritetlərinə yenidən baxmasını şərtləndirən əsas amildir. Mühəndis ixtisaslarına gənclərin marağının artmasına səbəb olan əsas amillərdən biri də bu sahədə fəaliyyət göstərən ali məktəblərdə tədrisin keyfiyyətinin yüksəlməsidir. Belə ali məktəblərin arasında Azərbaycan Dövlət Neft və Sənaye Universiteti xüsusilə fərqlənir və haqlı olaraq mühəndis ixtisasları üzrə yüksək savada yiyələnmək istəyən gənclərin güvəndikləri əsas ünvana çevrilib. ADNSU-nu gənclər üçün cəlbedici edən amillər, tədrisin keyfiyyətinin yüksəldilməsi üçün görülən işlər və gələcək olanlar haqqında danışmaq üçün universitetin rektoru, professor Mustafa Babanlıya müraciət etdik.**

**—Mustafa müəllim, yeni tədris ilinə hansı göstəricilərlə başladınız?**

—Təhsil ölkəmizdə aparıcı sahələrdən biridir, çünki ölkəmizin gələcəkdə daha da inkişaf etməsi bundan asılıdır. ADNSU fəaliyyətini Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkənin inkişafı üçün müəyyənləşdirdiyi prioritet istiqamətlərə uyğun qurmağa çalışır. Belə ki, universitetin nüfuzunu, bura olan tələbatı nəzərə alaraq qəbul olunan tələbələrin həm sayının artırılması, həm də onların biliklərinin keyfiyyətinin yüksəldilməsini qarşımıza ən vacib vəzifə kimi qoymuşuq. Biz ən yüksək bal toplayan tələbələrin bizim universiteti seçməsi üçün hər il orta məktəblərdə, liseylərdə görüşlər keçiririk, bəzi məktəblərin şagirdlərinin universitetimizə ekskursiyasını, məktəblilər üçün fənn olimpiadaları təşkil edirik. Bunların nəticəsi olaraq bu il müstəqillik illərində ilk dəfə olaraq rekord sayda gənc ADNSU-nun tələbəsi adını qazanıb. Belə ki, təkcə bakalavriat səviyyəsində 2866 nəfər ADNSU tələbəsi adını qazanıb. Onlardan 141-i ADNSU-nun nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetinə (UFAZ) qəbul olunub. Balların paylanmasına gəldikdə bizdə ən yüksək bal UFAZ tələbələrinə məxsusdur ki, onların orta balı ilk dəfə olaraq 620-yə yüksəlib və bu son hədd deyil.

**—ADNSU-ya qəbul zamanı orta bal nə qədər təşkil edib?**

—Mən bu gün universitetimiz adına çox qürurluyam. Bu il ölkə üzrə 1-ci ixtisas qrupu üzrə 600 baldan yuxarı nəticə göstərən 880 nəfərdən 392-si ADNSU-nu seçib. 500-dən çox bal toplayan 2312 abituriyentdən isə 1082-si bizim ali məktəbə gəlib. Bu nəticələr universitetin nüfuzundan xəbər verir. Biz bu məsuliyyəti dərk edərək daim öz üzərimizdə işləyərək tədris proqramlarımızı, material texniki bazamızı və s. yaxşılaşdırmağa çalışırıq. Bu ildən apelyasiya komissiyalarının tərkibində ən yaxşı oxuyan yuxarı kurs tələbələrinin iştirakını təmin etməyi düşünürük. Çünki, şəffaflığın təmin olunması üçün təkcə müəllimin deyil, tələbənin də komissiyada iştirakı vacibdir. Ümumiyyətlə, qiymətləndirmə bir qədər subyektiv məsələdir, yəni hər müəllimin imtahanda qiymətləndirmə üçün bir subyektiv yanaşması olur. Digər bir tərəfdən, keyfiyyət artdıqca tələbələr arasındakı fərqi tənzimləmək də çətinləşir. Məsələn, bizdə bu il birinci kursda təhsil alan 7 qrup var ki, orada ən aşağı nəticə göstərən tələbə 612 balla qəbul olunub. Elə qrup var ki, ən aşağı nəticə göstərən tələbə 642 bal toplayıb. Bu rəqəmlərə baxanda biz dərk edirik ki, tələbələrlə ciddi məşğul olmaq lazımdır. Ona görə də biz pedaqoqları, tədris sillabuslarını müəyyənləşdirərkən həmin tələbələrin topladıqları balı çox ciddi nəzərə alırıq.

**—ADNSU-da ingilis dilində tədrisə xüsusi əhəmiyyət verilir. İngilis bölməsinə qəbulun nəticələri sizi qane edirmi?**

—UFAZ da daxil olmaqla universitetimizə qəbul olunan tələbələrin 600 nəfərə qədəri ingilis bölməsində təhsil alacaqlar. Biz bu məsələyə süni şəkildə yanaşmamışıq. İngilis bölməsində oxuyan tələbələrin və ixtisasların sayını artırmağa davam edirik. Hazırda ADNSU-da 22 ixtisas üzrə ingilis dilində tədris aparılır. Bəzi ixtisaslar üzrə həm ADNSU, həm də UFAZ-a qəbul var. Ona görə də bəzi ixtisaslarda üst-üstə düşmələr var. Biz bunu da planlı şəkildə etmişik. Çünki, elə olur ki, tələbə özünü UFAZ-da doğrulda bilmir, o ADNSU-ya köçürülür. Bunun üçün ingilis dilli ixtisasların olması çox müsbət haldır. UFAZ-da olan bütün ixtisaslar üzrə ADNSU-nun özündə də ingilis dilində qruplar var. Digər tərəfdən də burada özünü doğruldan tələbələr də sənədlərini 1-ci və 2-ci kursdan sonra UFAZ-a təqdim edib təhsilini orada davam etdirə bilər. İngilis dilində tədrisin keyfiyyətinin yüksəldilməsi, ingilisdilli professor və müəllimlərin tədrisə cəlb edilməsi işini bir an da olsa, dayandırmırıq və gənclərin ADNSU-ya olan etimadını doğrultmaq üçün səylərimizi davam etdiririk.

**—ADNSU mühəndis ixtisasları üzrə təhsil verən ali məktəblərin avanqardında yer alır. Bunun üçün kifayət qədər elmi-pedaqoji bazanız olsa da, biz bilirik ki, maddi-texniki baza ilə bağlı bəzi çatışmazlıqlar qalmaqdadır. Bu vəziyyəti düzəltmək üçün hansı işlər görülür?**

—Bilirsiniz ki, universitetimiz çoxşaxəli fəaliyyət göstərir. Bizdə yalnız bakalavriatda 36 ixtisas üzrə təhsil verilir. Bütün ixtisasların hamısını ən yüksək keyfiyyətli və ən son texniki nailiyyətləri özündə birləşdirən texnika ilə təmin etmək çox çətindir. Ona görə də biz baza təhsili vermək üçün mümkün olan avadanlıqları birinci növbədə təmin etməyə çalışır və buna hər il böyük vəsait xərcləyirik. Bu baxımdan, son 3 il ərzində tədris laboratoriyalarının yenilənməsi, yeni avadanlıqların alınması istiqamətində xeyli iş görmüşük. Bizdə hazırda elə ixtisaslar var ki, orada dünyada olan ən müasir avadanlığın 95%-ə qədərini universitetə toplaya bilmişik. Məsələn, "Elektrik mühəndisliyi", "Elektroenergetika mühəndisliyi", "İstilik energetikası mühəndisliyi" ixtisası üzrə təhsil alan tələbələrlə biz bu gün faktiki olaraq ən müasir cihazlarla təmin olunmuş laboratoriyalarda tədris apara bilirik. Ancaq həcmli laboratoriyaları olan ixtisaslar var ki, məsələn, "Neft-qaz mühəndisliyi", "Neft-qaz avadanlığı mühəndisliyi" onlarda həmin avadanlıqların hamısını gətirib laboratoriyaları zənginləşdirmək imkanımız məhduddur. Ona görə də biz SOCAR-ın və digər iri müəssisələrin bölmələri ilə sıx əməkdaşlıqla bu işləri həyata keçiririk.

**—Cari tədris ilində UFAZ üçün müasir laboratoriya bazasının istifadəyə veriləcəyi barədə məlumatlar var. ADNSU tələbələrinin də həmin laboratoriyalardan istifadə etməsi nəzərdə tutulurmu?**

—UFAZ yarananda Fransa tərəfi universitetin laborator bazasının qurulmasını bizim qarşımıza tələb kimi qoymuşdu. Ölkə rəhbərliyinin birbaşa tapşırığı ilə UFAZ-ın maddi-texniki bazasının yaxşılaşdırılması üçün çox ciddi işlər görülür. O cümlədən də, ikinci tədris binasının bir hissəsini biz laboratoriya korpusu qismində UFAZ üçün hazırlamağa ayırdıq. Və burada işlər tamamlanmaq üzrədir. Mən düşünürəm ki, yaxın günlərdə laboratoriya korpusu tam hazır olacaq. Burada UFAZ-da təmsil olunan "Geofizika mühəndisliyi", "Neft-qaz mühəndisliyi", "Kimya mühəndisliyi" və "Kompüter elmləri" ixtisaslarına lazım olan bütün avadanlıqlar gətiriləcək və təmin olunacaq. Laboratoriyada birinci növbədə hazırda tələbələr üçün lazım olan ən müasir avadanlıqlar quraşdırılır. Fransız tərəfi bu avadanlıqların seçilməsi və quraşdırılmasında birbaşa iştirak edir. Tələbələrin 4-cü kursda istifadə edəcəyi avadanlıqların isə növbəti ildə gətirilib quraşdırılacağı nəzərdə tutulub. Elə həmin tədris binasında biz gələcəkdə "Kompüter elmləri" ixtisası üçün super kompüterin gətirib quraşdırılmasını nəzərdə tutmuşuq. Oradan da ikinci tədris binasının özünə qapılar açılır və xüsusi icazəsi olan müəllimlər və tələbələr laboratoriyalarda işləmək imkanı qazanacaqlar. Sözsüz ki, bu laboratoriyalar birinci növbədə UFAZ tələbələri üçündür. Digər müddətdə isə fakültələrin sifarişləri əsasında ADNSU tələbələri də bu avadanlıqlardan yararlana biləcəklər. Laboratoriyanın qısa müddət ərzində yaradılması, ümumilikdə, UFAZ layihəsi özü də birbaşa Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsüdür və dövlət başçımızın ölkə gənclərinin təhsilinə göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

**—KİV-lərdə tez-tez ADNSU və UFAZ-da əcnəbi professorların mühazirələr oxuması ilə bağlı xəbərlərə rast gəlinir. Cari tədris ilində də əcnəbi professorların tədrisə cəlb olunması davam etdiriləcəkmi?**

—Əgər biz Avropa təhsil məkanına inteqrasiya ediriksə və bizim gənclərimizin bir müddət və yaxud da ki, burada baza təhsili aldıqdan sonra təhsillərini xaricdə davam etdirməsi üçün şərait yaratmaq istəyiriksə, onda Avropa təhsil məkanlarında baş verən prosesləri universitetimizə gətirməliyik və əsasən də təhsilin, tədrisin keyfiyyəti və proqramların Avropa tədris proqramlarına uyğunlaşdırılması yönündə atılacaq addımları burada təbliğ və təşviq etməliyik. Təkcə bu semestr UFAZ-da dəvətli professorın sayı 25-dən çox olacaq. Növbəti semestrdə isə 30-dan artıq əcnəbi professorun gəlməsi planlaşdırılır. Eyni zamanda ADNSU-nun özündə də müxtəlif sahələr üzrə 10-dan artıq dəvətli professorun gəlişi nəzərdə tutulub. Bundan əlavə, bu təqvim ilinin sonunadək ADNSU-nun Beynəlxalq Əməkdaşlıq Şöbəsinin müdiri vəzifəsinə professor Ulrix Eberhart təyin olunacaq. Almaniyalı professor Zigen Universitetindəki öhdəliklərini yekunlaşdıran kimi bizimlə çalışmağa başlayacaq. Bütün bunların hamısı Azərbaycan təhsil sisteminin Avropa təhsil sisteminə uyğunlaşdırılması prosesinə kömək edəcək.

**—Mustafa müəllim, bir qədər də magistratura və doktorantura səviyyələrində təhsillə bağlı məlumat verərdiniz?**

—Əgər qarşımıza ADNSU-nun milli elmi-tədqiqat universiteti olmaq məqsədi qoymuşuqsa, təkcə bakalavr təhsilinin yüksəldilməsi, proqramların müasirləşdirilməsi ilə iş bitməyəcək. Biz ölkəmiz üçün yüksək ixtisaslı elmi-pedaqoji kadrlar hazırlanması yolunda da müəyyən işlər görməliyik. Bunlardan biri də ilk növbədə magistratura təhsilinin səviyyəsinin yüksəldilməsi, o təhsilin işəgötürənlərlə bir yerdə verilməsinə çalışılmasıdır. Əlbəttə ki, say baxımından da biz müəyyən qədər irəliləmişik. 2015-ci ildə bütün ixtisaslar üzrə universitetdə cəmi 384 magistrant olub. Təkcə bu il universitetimizə 91 nəfər MBA proqramına, 510 nəfər isə ADNSU-nun digər ixtisaslarına magistraturaya qəbul olunub. Yəni, ümumilikdə, 601 nəfər magistratura səviyyəsinə qəbul olunub. Keçən il biz 515 nəfər magistr buraxılışı etdik və onların hamısı işləyirlər. Onların 503 nəfəri öz ixtisasları üzrə işləyərək universiteti tərk ediblər. Bunlar artıq ondan xəbər verir ki, bizim magistratura bölməsinə bütün ölkə miqyasında çox böyük tələbat var və insanlar məmnuniyyətlə bizim magistratura proqramlarını seçirlər. Magistraturaya qəbul olunmaq üçün orta bal bu il 99 bal olub. Ölkə üzrə bizim magistrantların səviyyəsi kifayət qədər yüksəkdir.

Universitetdə həyata keçirilən bütün proseslərdə verilən dəstəyə görə Təhsil Nazirliyinin rəhbərliyinə və bütün əməkdaşlarına təşəkkür etmək istəyirəm. Doktorantura səviyyəsində bunu xüsusi vurğulamaq istəyirəm. Biz son illər doktorantura səviyyəsində plan yerlərini artırmışıq. Hətta, keçən il biz doktoranturada 120 plan yerinə elan verəndə bəziləri buna inamsız yanaşaraq plan yerlərinin dolmayacağını düşünürdülər. 120 yerə 151 nəfər sənəd verdi, onlardan 119 nəfəri həm fəlsəfə doktoru proqramına, həm dissertanturaya, həm tam elmlər doktoru proqramına qəbul etdik. Bu il bu plan yerlərinin bir qədər də artırılması nəzərdə tutulub. Dövlət sifarişli yerlərin sayı artmayacaq, amma ödənişli əsaslarla olan plan yerlərinin sayını artırmağı düşünürük. Biz doktorantura səviyyəsində mövzuların seçilməsini, müasir Azərbaycanın tələblərinə uyğun olmasını, onların bu gün artan ehtiyaclarımıza uyğun olmasını maksimum dərəcədə təmin etməyə çalışırıq. Bizim üçün uğurlu haldır ki, doktorantura səviyyəsində plan yerlərimiz faktiki olaraq 100% yerinə yetirilib.

**—Siz çıxışlarınızda xüsusi olaraq qeyd etdiyiniz bir məqam var ki, universitetlər təkcə təhsil deyil, həm də elm ocağı olmalıdır. ADNSU-da təhsil və elmin vəhdətinə nail olmaq üçün nə kimi addımlar atılır?**

—Bilirsiniz, universitet deyəndə təkcə təhsil ocağı nəzərdə tutula bilməz. Universitet elmlə təhsilin vəhdətidir. Universitet təhsili ən müasir elmi nəticələrə əsaslanmış ali təhsili özündə ehtiva edir. Əgər universitetdə elmi işlər yerinə yetirilmirsə, professor-müəllim heyəti, assistent-professorlar gündəlik elmi fəaliyyətdə deyillərsə, tədrisdə müasirliyə çətin ki, nail olunsun. Bu baxımdan biz universitet elmini təbliğ və təşviq etməyə çalışırıq. Bir tərəfdən, universitetimizdə çalışan alimlərin fəaliyyətini stimullaşdırırıq, ikinci bir tərəfdən də elmi fəaliyyəti və onun tətbiqini öz tərəfimizdən stimullaşdırırıq. Bunun üçün universitetimizdə müəllimlər artıq üçüncü il olacaq ki, əlavə maaş alacaqlar. Birinci müsabiqədə 80 nəfərdən artıq, ikincidə isə 40 nəfərdən artıq professor-müəllim heyəti hər ay maaşından başqa 100-900 manat arası əlavə maaş alıblar. Bunların içərisində ən yüksək əlavə maaş alan professor 854 manat alır. Bundan başqa, bir nəfər laborantımız da elmi göstəricilərinə görə hər ay əlavə 100 manat alır. Digər məbləğlər isə, qeyd etdiyim intervallarda paylanıb. Hər il dekabr ayının 1-də professor-müəllim heyəti əvvəlki ilin 1 dekabrından bu yana elmi və pedaqoji fəaliyyəti ilə bağlı bütün göstəriciləri komissiyaya təqdim edir. Onun nəticələrinə görə bal qazanır, yığdığı ballara uyğun olaraq 4 kateqoriya üzrə əlavə maaş alırlar. Şərtləri ödəyən əməkdaşlar yanvar ayından bir il müddətində əlavə maaş almağa başlayırlar. Əlavə maaşların verilməsində say məhdudiyyəti yoxdur. Şərtləri ödəyən bütün professor-müəllim heyəti əlavə maaş ala bilər. Başqa bir tərəfdən, pedaqoji fəaliyyət də nəzərə alınır. Həmin professor-müəllim heyətinin elmi, pedaqoji fəaliyyəti, dərs demək qabiliyyəti, o cümlədən də müəllimin dərs dediyi tələbələrin ona verdiyi qiymət də nəzərə alınır. Ancaq biz bunu da kor-koranə etmirik. Əlavə maaş ala bilməsi üçün müəlliminin keyfiyyət göstəricisi universitetin ümumi keyfiyyət göstəricisindən yüksək olmalıdır. Bundan əlavə, tələbələrin müəllimin fəaliyyətinə verdiyi qiymət də balların hesablanması zamanı istifadə olunur. Vacibdir ki, tələbə müəllimi 6 kateqoriya əsasında qiymətləndirsin. Tələbə müəllimi qiymətləndirəndə onun anonimliyi saxlanılır. İmtahanın nəticəsinə görə hansı tələbə 71 baldan artıq bal toplayırsa, onların fikri müəllimə bal kimi gedir. Biz bu il ilk dəfə universitetdaxili qrant müsabiqəsi elan etdik. Yeddi qrant təyin olunacaq, artıq bu müsabiqənin ilkin qiymətləndirmə prosesi başa çatıb. 22 layihə təqdim olunmuşdu. Onlardan 7-si müsbət qiymətləndirilib. Hər biri 50 min manata qədər olmaq şərti ilə fevral ayından Elmi Şuranın təsdiqindən və rektorun əmrindən sonra həmin layihələrin maliyyələşdirilməsinə başlanacaq.

**—ADNSU-ya cəmiyyətdə böyük marağın olmasında, abituriyentlərin buranı seçməsində universitetdə tədris olunan ixtisasların beynəlxalq akkreditasiyadan keçməsi mühüm rol oynayır. Məlumdur ki, Təhsil Nazirliyinin xətti ilə əvvəlcə 3 ixtisası, daha sonra isə ADNSU-nun müstəqil şəkildə müraciətindən sonra 5 ixtisası 5 il müddətinə akkreditasiya olundu. Gələcəkdə də bu işlərin davam etdirilməsi planlaşdırılırmı?**

—Bu proses universitetin beynəlxalq nüfuzunun artması üçün, daha çox əcnəbi tələbələrin universitetə gəlməsi, bizim hazırkı tələbələrimizin beynəlxalq səviyyədə iş tapması üçün çox önəmli məsələdir. Bilirsiniz, biz onsuz da daxili akkreditasiyadan keçmişik. Azərbaycan Respublikası Təhsil Nazirlyinin tərəfdaşlığı ilə Almaniyanın Təhsil Proqramları üzrə Akkreditasiya Agentliyindən (ASİİN) və Mühəndislik üzrə Akkreditasiya üçün Avropa Şəbəkəsindən (ENAEE) sertifikat almışıq və 5 il müddətinə akkreditə olunmuşuq. Lakin biz işimizi bitmiş saymırıq. Biz özümüzə Avropadan nəzər yetirmək istəyirik. Ona görə də bu prosesə davam edəcəyik. Biz artıq FİBAA-da 5 ixtisası və ASİİN təşkilatından 3-nü akkreditə etmişik. FİBAA daha çox MBA proqramları üzrə ixtisaslaşıb və texniki ixtisasları dünyada akkreditə edən ən yaxşı təşkilatlardan biri elə ASİİN təşkilatı sayılır. Biz artıq onlara müraciət etmişik. Biz hər təşkilatla 5 ixtisasımızı akkreditə etmək prosesinə başlayırıq. Bu çox ağır prosesdir. Fikirləşirəm ki, yaxşı işləsək 1-1,5 ilə biz bu ixtisasları da akkreditasiya edə biləcəyik.

**—Əcnəbi tələbələrin ADNSU-ya cəlb olunması ilə bağlı hansı işlər həyata keçirilir? Sizin xarici səfərləriniz, xarici universitetlərlə bağlanan müqavilələr, ingilisdilli ixtisasların sayının artırılması və s. əcnəbi tələbələrin sayının artımına səbəb olacaqmı?**

—Hazırda universitetimizdə 500-dən artıq əcnəbi tələbə təhsil alır. Biz bu rəqəmin artırılmasını düşünürük. Ümumiyyətlə, universitetimizin potensialı ildə təxminən 2000 tələbənin təhsil alması üçün kifayət edir. Ancaq biz kəmiyyət yox, keyfiyyəti üstün tuturuq. Ona görə də müəyyən hazırlıq keçmiş tələbələrin universitetə cəlb olunmasına çalışırıq. ADNSU-ya münasibət birmənalı olaraq çox yüksəkdir. Bu sovet dönəmindən qalmış bir rəğbətdir. Ancaq hazırda biz bir qədər də coğrafiyanı genişləndirməyə çalışırıq. Əcnəbi tələbə deyəndə, mübadilə ilə gəlmiş tələbələr nəzərdə tutulmur. Bunlar sırf ADNSU-ya qəbul olunmuş tələbə anlamına gəlməlidir. Bizim əsasən təhsil bazarımızı Çin, Hindistan, Pakistan, Şri-Lanka, Nepal, Banqladeş, Malayziya, İndoneziya, o cümlədən Yaxın Şərq, postsovet ölkələri tutur. Əlbəttə ki, Türkiyə, İran, İraq kimi ölkələrdən də tələbə cəlb olunur. Son zamanlar Çin təhsil bazarına üz tutmağımız təsadüfi deyil. Bu ilin sentyabr ayında Çinə səfər zamanı Pekin Dövlət Neft Universiteti və Lanjou Universiteti ilə imzaladığımız sənədlər çərçivəsində 20-yə yaxın çinli tələbə ADNSU-ya təhsil almağa gələcək. Onlar orta məktəbdən çıxmış yox, artıq Lanjou universitetlərində subbakalavr təhsilini görmüş tələbələrdir. Onlar ADNSU-da fəaliyyət göstərən dil komissiyasından keçsələr, bizim ikinci kursun sonu, üçüncü kursa rahat qəbul oluna bilərlər. Biz bu işi gələcəkdə də davam etdirməyi düşünürük.

**—Təhsillə yanaşı elmi sahədə də beynəlxalq əlaqələr varmı? ADNSU-nun alimlərinin xarici ölkələrdə sənayenin problemlərinin həllində və yaxud ayrı-ayrı ölkələrdəki elmi problemlərin universitetdə araşdırılması ilə bağlı nə kimi işlər aparılır?**

—Əldə olunmuş razılaşmaların nəticəsində Poltava Milli Texniki Universitetinin professor-müəllim heyəti ilə birlikdə elmi laboratoriyalarda müştərək layihələrin yerinə yetirilməsi, Ukrayna sənaye müəssisələri üçün, o cümlədən də qaz istehsalı sahələri üçün bizim universitetin müəyyən proseslərdə iştirak etməsi ilə bağlı onlardan ciddi təkliflər var. Bundan başqa, ABŞ şirkəti qazma, nəql prosesində bizimlə müəyyən əməkdaşlıq etmək istəyir. Şirkətin Azərbaycan əsilli texniki direktoru universitetimizdə oldu. Bundan əlavə, Kazan Federal Universitetinin 70 açıq elmi laboratoriyası var. Onlarla da istər geologiya, istər neft-qaz hasilatı, istərsə də informasiya texnologiyaları sahəsində müəyyən işlərin görülməsi nəzərdə tutulub. Həmçinin ADNSU-nun Beynəlxalq Əməkdaşlıq şöbəsinin yeni təyin olunmuş müdiri professor Ulrix Eberhartın nüfuzundan, əlaqələrindən istifadə edərək müəyyən elmi layihələrin universitetə cəlb olunmasını düşünürük. Biz onun qarşısında belə bir məsələ qoymuşuq ki, daha çox "HORİZON 2020", "Erasmus+" elmi layihələrində universitetin iştirakını təmin etməlidir. Universitetin alimlərinin bu laboratoriyalara ezam olunmasını təşkil etməlidir. Düşünürəm ki, bu istiqamətdə ADNSU-nun böyük potensialı var və biz nəinki təhsil ocağı kimi, həmçinin elmi müəssisə kimi də öz biliklərimizi, bacarıqlarımızı dünya bazarına çıxarmalıyıq.

**—ADNSU-da bir müddət əvvəl Lazer Mərkəzinin təqdimatı keçirildi. Burada transfer texnologiyalarının tətbiqi ilə bağlı da işlər aparılır. Lazer Mərkəzi ilə bağlı müəyyən sifarişlərin olduğu məlumdur. Hazırda burada universitetin yararlanması üçün hansı yeniliklər var?**

—Lazer Mərkəzi ilə bağlı biz Almaniya tərəfindən, konkret olaraq Axen Univesitetinin təcrübəsində bu işi quranda birinci il üçün elə tədrisin təşkilini nəzərdə tutmuşduq. Baxmayaraq ki, çoxlu sayda sifarişlər var idi, biz onları ancaq nümunə kimi təmənnasız olaraq həmin müəssisələrə hazırlayıb verməklə kifayətləndik. Artıq universitet bu sahədə 15 mütəxəssisi tam yetişdirib, onları diplomlu mütəxəssis kimi cəmiyyətə təqdim edib. Bu tədris ilindən sifarişlər qəbul etməyə başlayacağıq. Onun müəyyən hissəsi həmin sifarişin yerinə yetirilməsi, əməkhaqqı və s. qismində, müəyyən hissəsi bizim tərəfdaşımız tərəfindən götürüləcək, bir hissəsi də bonus kimi universitetə daxil olacaq. Lazer Mərkəzinin genişləndirilməsini nəzərdə tuturuq. Belə ki, bu lazer qurğusunun bütün sifarişlərin yerinə yetirilməsinə gücü çatmır. Həm daha güclü lazerlərin gətirilməsi, ikincisi, bizim hazırlayacağımız başlıqların satışına başlanacaq. Onların texniki yoxlanılması, hazırlanması, təhvil verilməsi, qarşı tərəfə tam şəkildə öyrədilməsi prosesini həyata keçirəcəyik. Bu sahədə bizim ciddi çətinliyimiz yoxdur. Qarşı tərəf öz öhdəliklərini yerinə yetirir. Biz də təhsil ocağı olaraq həm tədrisi, həm də tətbiqi həyata keçirəcəyik. Transfer texnologiyalarına gəlincə, bu sahədə işimizi iki istiqamətdə qurmuşuq. Birinci istiqamət mövcud potensialdan istifadə edib illərlə yığılıb qalmış elmi nailiyyətlərin tətbiqini təmin etməkdir. İkinci istiqamətimiz isə müəssisələrdə olan problemləri universitetə gətirmək, orada olan problemləri universitetdəki elmi kollektivlə müzakirə etmək və müəssisə kollektivi ilə birlikdə müvəqqəti elmi işçi kollektivi yaradıb o problemlərin həllində təsərrüfat hesablı və yaxud da ki, xüsusi layihələrin yerinə yetirilməsi. Elmlə, texnologiya ilə bağlı olan məsələlər bir az çətin tətbiq olunur. Lakin istədiyimiz kimi operativ olmasa da, bu istiqamətdə başlanan fəaliyyət öz bəhrəsini verəcəkdir.



**—ADNSU-da həyata keçirilən mühüm layihələrdən biri də "Eazi START" Startap və İnnovasiya Mərkəzidir. Ötən tədris ili startap mərkəzinin bir neçə layihəsi yerli və beynəlxalq müsabiqələrdə uğurla iştirak edib. Bu sahədə nə kimi yeniliklər var?**

—Bizim ən uğurlu layihələrimizdən biri elə startap hərəkatının universitetimizdə inkişaf etdirilməsidir. "Eazi START" Startap və İnnovasiya Mərkəzinin nəzdində startap məktəbi ilə yanaşı, prototiplərin hazırlanması üçün xüsusi emalatxanalar fəaliyyət göstərir. Bu il biz yenidən Mərkəzin özü qalmaq şərti ilə böyük bir emalatxananı tələbələrin ixtiyarına verməyi düşünürük. Emalatxana bütün lazımi avadanlıqla təmin olunacaq. Bu günə qədər tələbələr kustar yolla, öz imkanları daxilində bu işi görürdülər. Biz onları artıq mərkəzləşmiş formaya sala bilirik. Məktəbin fəaliyyətini davam etdirəcəyik. İsrail, Ukrayna və ABŞ-dan olan tərəfdaşlarımız və mentorlar öz fəaliyyətlərini davam etdirəcəklər. Biz ABŞ bazarına çıxmağı düşünürük. Artıq müəyyən məhsullarımızı ilkin variantda tərəfdaşımız professor Keit Miller ABŞ-a aparıb. Biz bu ildən başlayaraq daha çox keyfiyyətə önəm verməyə başlayacağıq.

**—Ümumiyyətlə, ADNSU spesifik bir ali məktəbdir. Bu spesifiklik ondan ibarətdir ki, bilavasitə sənaye və iqtisadiyyat üçün kadrlar hazırlayır. Bunun daha bir bariz nümunəsi bizim ixtisasartırma institutuna olan marağın artmasıdır. İstərdik bu barədə də məlumat verəsiniz.**

—İkinci təhsil həmişə keyfiyyəti, şəffaflığı və s. baxımından sual doğurub. Ona görə də universitetin bütün bölmələrində olduğu kimi, ikinci təhsil Sənaye Müəssisələri İşçilərinin İxtisasartırma və Yenidənhazırlama İnstitutunun (SMİİYİ) nəzdinə verildi. Orada yeni bir sistemlə ikinci təhsilə müraciət edən insanların müsahibədən keçərək tədrisə cəlb olunması prosesini həyata keçirdik. Çox uğurlu alındı və birinci ildə bizə müraciət edənlərin sayı təxminən 230 nəfər idi. İkinci ildə bu rəqəm 260-a çatdı. Bu il isə biz 346 nəfəri bakalavr pilləsinin 2, 3, 4-cü kurslarına və 27 nəfəri də nəzdimizdə olan kollecə qəbul etdik. Artıq oktyabrın 1-dən dərslərə başlanıb. Biz anlayırıq ki, ikinci təhsilə artıq püxtələşmiş, bir dəfə ali təhsil görmüş təcrübəli insanlar gəlirlər. Onların proqramı gənc bakalavrın proqramından bir qədər fərqlənməlidir. Çünki, onlara artıq istehsalat prizmasından təhsil verilməlidir və biz proqramları o formada qururuq. Biz ən nüfuzlu professor və müəllimləri bu prosesə cəlb edirik və onlara əlavə əməkhaqqı müəyyənləşdiririk. Bizim üçün ən önəmli məsələ bura gələn insanın təhsil almaq istəməsidir, diplom almaq yox. Ona görə də biz tədrisi yüksək səviyyədə təşkil edirik. Biz çox sevinirik ki, bu insanlar ödənişli olmasına baxmayaraq ikinci təhsildə maraqlıdırlar. Onların alacaqları diplom adi bakalavr diplomundan heç nə ilə fərqlənmir. Ona görə də biz verdiyimiz təhsilin keyfiyyətinə cavabdehik. Ancaq başqa bir tərəfdən də biz çox sevinirik ki, Azərbaycanın sənayesinə öz töhfəmizi veririk.

**—ADNSU-da yeni kitabxananın yenidən qurulması və təşkili ilə bağlı işlər nə yerdədir?**

—Artıq 2 ilə yaxın müddətdir ki, biz kitabxananın yenidən qurulması layihəsi üzərində işləyirik. Bildiyiniz kimi, həm Lester, həm də Berlin universitetlərindən mütəxəssislər dəvət etdik. Nəhayət, Berlin Universitetindən olan almaniyalı professorun təkliflərinin üzərində dayandıq. Bu işdə bizə Alman Akademik Mübadilə Xidməti (DAAD) də çox dəstək verdi və mən onlara təşəkkürümü bildirirəm. Həmin layihə çərçivəsində biz kitabxananın yenidən qurulmasını faktiki olaraq mahiyyət baxımından yekunlaşdırdıq. Ümid edirəm ki, noyabr ayının ortalarına kimi biz kitabxananı tam ictimaiyyətə təqdim edə biləcəyik. Gün ərzində təxminən eyni zamanda 250 nəfərin kitabxanadan istifadəsini təmin etməyi düşünürük. Arzu edənlər kitabxanadan gecə saatlarında da yararlana biləcəklər. Onlar üçün pulsuz isti yemək də təşkil olunacaq. Gecə saatlarında kitabxanada məşğul olmaq istəyən tələbələrimiz əvvəlcədən öz planlarını təqdim edəcəklər. Kitabxananın fəaliyyəti sözsüz ki, kamera müşahidəsi və əməkdaşların nəzarəti altında həyata keçiriləcək. Yeni kitabxananın fəaliyyətə başlamasından ən çox faydalanacaq insanlar isə ailə həyatı qurmuş magistr və doktorantlarımız olacaq. Onların burada məhsuldar işləmələri üçün hər bir şərait yaradılacaq. Yeni kitabxana ilə yanaşı, onun fondunun yenilənməsi ilə bağlı da iş aparılır. Hazırda bütün ixtisaslar üzrə lazımi dünya ədəbiyyatları reyestri hazırlanır. Onların sifarişi əsasında bütün kitablar, o cümlədən ingilis dilində kitablar alınıb kitabxanaya təqdim olunacaqdır.

**Müsahibəni apardı:**
**Müşfiq MİRZƏ,**
**"Respublika".**











# GƏNCƏDƏ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİNƏ HƏSSASLIQLA YANAŞILIR



Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Şeyxzamanlı qəsəbəsinin sakinləri ilə də görüşüb. Olduqca səmimi olan görüşdə şəhər icra hakimiyyətinin başçısı bildirib ki, görüş Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq keçirilir. Məqsəd sakinlərin problemlərini öyrənmək və onların həlli yollarını tapmaqdır. "Açıq mikrofon" şəraitində keçən görüşdə vətəndaşlar şikayətlərini dilə gətirib, müxtəlif təkliflərlə çıxış ediblər. Səslənən müraciətlər arasında işlə təminat, təbii qazın verilişində yaranan vaxtaşırı fasilələr, küçələrin gecə işıqlanması, çoxmərtəbəli yaşayış binalarının dam örtüklərinin dəyişdirilməsi, şəhərdaxili marşrut xətləri üzrə hərəkət edən avtobusların iş saatının uzadılması və digər məsələlər öz əksini tapıb. Ümumilikdə 30-dan artıq şikayət və təklif dinlənilib. Bir çox məsələlər yerindəcə öz həllini tapıb, digər problemlərin araşdırılaraq aradan qaldırılması üçün aidiyyəti qurum və şəxslərə müvafiq tapşırıqlar verilib.

* * *

Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq vətəndaşlarla görüşmək, onların müraciətlərini dinləmək, problemlərinin vaxtında həll olunması üçün Gəncədə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun şəhər sakinləri ilə görüşləri, səyyar qəbulları, problemlərinin yerində öyrənilməsi, həll edilməsi vətəndaşları razı salır. Operativlik, hərtərəfli araşdırmalar, ən başlıcası insanlara verilən yüksək dəyər bu qəbulların əsasını təşkil edir. Vətəndaş hiss edir ki, onun müraciəti dərhal diqqətə alınır, qəbulda iştirak edən müvafiq təşkilatların rəhbərlərinə tapşırıqlar verilir, problem həllini tapır.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun növbəti görüşü Hacıkənd qəsəbəsinin sakinləri ilə olmuşdur. Görüşdə Prezident Administrasiyasının Ərazi-Təşkilat Məsələləri Şöbəsinin sektor müdiri Vəfadar Bağırov da iştirak edib.

"Açıq mikrofon" şəraitində keçən görüşdə qəsəbə sakinləri öz problemlərini dilə gətiriblər. Bildirilib ki, Hacıkənddə vahid su şəbəkəsi və kanalizasiya sistemi yoxdur, burada yeni su xətləri və sanitar qovşaqların çəkilməsinə ehtiyac var. Həmçinin, qəsəbənin 5 küçə və 2 dalanının gecə işıqlanması mövcud deyil. Bununla yanaşı, qəsəbədə mağaza və ya marketin olmaması da sakinlər üçün çətinlik yaradır. Səslənən müraciətlər arasında işlə təminat, yaşayış evinin tikintisi üçün torpaq sahəsinin verilməsi, diabet xəstələrinin dərman preparatları ilə təminatı, sənədsiz ev və təsərrüfatların rəsmiləşdirilməsi kimi məsələlər də yer alıb. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov bildirib ki, ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, hazırda Gəncənin 30-a yaxın küçəsinin asfalt örtüyü yenilənir, həmin küçələrdə müasir gecə işıqlanması qurulur. Gəncədə icra olunan şəhərin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi çərçivəsində də işlər davam etdirilir. Qəsəbədə olan problemlərin qısa zamanda aradan qaldırılması istiqamətində müvafiq tapşırıqlar verən şəhər icra hakimiyyətinin başçısı, səslənən bəzi problemlərin qeydiyyata alınaraq araşdırılması üçün müvafiq qurumlara göstəriş verib. Dilə gətirilən bir çox məsələlər isə yerindəcə öz həllini tapıb.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# "Yeni Nəsil" gənc sahibkarlara dəstək layihəsi

**Azərbaycan Gənclər və İdman Nazirliyi və "Coca-Cola" şirkətinin dəstəyi ilə "Vətəndaş Cəmiyyətində Debat" İctimai Birliyinin (DVC) reallaşdırdığı "Youth İnc." sahibkarlıq proqramı çərçivəsində "New Generation" ("Yeni Nəsil") gənc sahibkarlara dəstək layihəsinə start verildi.**

Tədbirdə Gənclər və İdman nazirinin müavini İntiqam Babayev, "Coca-Cola" şirkətinin Qafqaz ölkələri üzrə ictimaiyyətlə əlaqələr və kommunikasiya meneceri Elşad Fərzəliyev, DVC-nin sədri Ələkbər Mustafayev, həmçinin proqramın tərəfdaş təşkilatları və media nümayəndələri iştirak ediblər.

"New Generation" gənc sahibkarlara dəstək layihəsi "Youth Inc." proqramı çərçivəsində 2018-ci ildə həyata keçirilməyə başlayacaq və ölkə miqyasında 4 iqtisadi regionu əhatə edəcək. Layihənin əsas məqsədi ölkə ərazisində gəncləri sahibkarlığa həvəsəndirmək və mövcud biznes ideyaları daha da inkişaf etdirərək startap ekosistemінə qoşmaqdır. Bir il davam edəcək layihə Abşeron, Quba-Xaçmaz, Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi regionlarında icra olunacaq. "Youth Inc." proqramı çərçivəsində həyata keçirilən bu layihədə ümumilikdə 2000 gəncin iştirakı nəzərdə tutulub.




Layihəyə qoşulan gənc sahibkarlar ümumilikdə 4 mərhələdən keçəcək.

Mərasimdə çıxış edən Gənclər və İdman nazirinin müavini İntiqam Babayev Azərbaycan Prezidenti İlham Əliyevin sahibkarlıq və biznes sahəsinə olan dəstəyindən, həmçinin iqtisadiyyat sahəsi üçün islahatlarından danışdı. Nazir müavini "Youth İnc." proqramının və Biznes İnkubasiya Mərkəzinin fəaliyyətindən söz açaraq start götürmüş "Yeni Nəsil" layihəsi haqqında fikirlərini bildirib və qarşıdakı 1 il ərzində layihə heyətinə və əhatə ediləcək 2000 gəncə uğurlar arzuladı.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov isə öz çıxışında son günlərdə ölkədə keçirilən sahibkarlıq ekosisteminə dəstək göstərən layihələrdən bəhs edərək "Youth Inc." sahibkarlıq proqramının təşəbbüsü ilə həyata keçirilən bu layihənin də təqdirəlayiq olduğunu bildirdi.

"Coca-Cola" şirkətinin Qafqaz ölkələri üzrə ictimaiyyətlə əlaqələr və kommunikasiya meneceri Elşad Fərzəliyev bildirdi ki, "Coca-Cola" olaraq fəaliyyət göstərdiyimiz bütün ölkələrdə cəmiyyətin rifahının yaxşılaşdırılması, iqtisadi yüksəlişə töhfə vermək, eləcə də gəncləri biznes fəaliyyətinə həvəsləndirmək başlıca prioritetlərimizdəndir.

DVC-nin sədri Ələkbər Mustafayev çıxışında təşkilatın startap ekosisteminə dəstək üçün olan fəaliyyətindən, beynəlxalq əlaqələrdən söz açdı. O, həmçinin, "Yeni Nəsil" layihəsinin məqsədləri, hədəfləri, cari və gələcək fəaliyyəti haqqında tədbir iştirakçılarına məlumat verdi.

Tədbirdə "Youth İnc." Biznes İnkubasiya Mərkəzinin 2015-2018-ci illərdə ən uğurlu startapçıları öz layihələrini təqdim etdilər və yekunda diplomla mükafatlandırıldılar.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**




*Leyla Abdullayeva:*

# Qondarma "Artsaxın müstəqillik hərəkatı"nın 30 illiyi ilə bağlı qətnamə kağız parçasından başqa bir şey deyil

**Erməni mətbuatında ABŞ-ın Los-Anceles Şəhər Şurasının qondarma "Artsaxın müstəqillik hərəkatı"nın 30 illiyi ilə əlaqədar qətnamə qəbul olunması ilə bağlı məlumatlar şişirdilərək ictimaiyyətə yanlış formada çatdırılır. Çünki sözügedən "qətnamə" Los-Anceles Şəhər Şurasının üzvləri tərəfindən imzalanmayıb.**

Bu fikirləri jurnalistlərə açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Leyla Abdullayeva bildirib.

Leyla Abdullayeva qeyd edib ki, bu, Şuranın yalnız bir erməni əsilli üzvü olan Pol Qriqoryan tərəfindən qəbul olunan fərdi qərardır. Fərdi qətnamə Şəhər Şurasında müzakirəyə çıxarılmır və səsverməyə qoyulmur. Yəni, bu, fərdi təşəbbüslə irəli sürülmüş bir "qərar"dır və həmin "sənəd" hər hansı hüquqi qüvvəyə malik deyil. Bu, bir erməni əsilli üzv tərəfindən irəli sürülən kağız parçasından başqa bir şey deyil.

Azərbaycanın son vaxtlar beynəlxalq miqyasda qazandığı uğurlardan danışan Leyla Abdullayeva bildirib ki, Belçikanın Xarici İşlər Nazirliyi bu yaxınlarda açıqlama ilə çıxış edərək Dağlıq Qarabağ bölgəsinin Azərbaycanın ərazisi olduğunu bildirib. Bir müddət əvvəl Almaniya da eyni mövqeyi sərgiləyib. Belə ki, bu ölkənin Bundestaqı Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu vurğulayıb. "Bu ilin iyul ayında Prezident İlham Əliyevin Brüsselə səfəri çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanıb. Bu sənədlə Avropa İttifaqı Azərbaycanın müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və beynəlxalq sərhədlərinin toxunulmazlığına sadiq qaldığını bir daha bəyan edib. Digər tərəfdən, ABŞ rəsmilərinin səsləndirdikləri son bəyanatlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi əsasında həllinə dəstək ifadə olunub", - deyə XİN rəsmisi vurğulayıb.

L.Abdullayeva qeyd edib ki, səsləndirilən bütün bəyanatlar, imzalanan sənədlər ölkəmizin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı tutduğu mövqeyə beynəlxalq ictimaiyyətin artan dəstəyinin bariz nümunəsidir. Əlbəttə ki, bunlar, ilk növbədə, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən xarici siyasətin uğurlarıdır.

**AZƏRTAC**

## BİLDİRİŞ

Cəlilabad Rayon İcra Hakimiyyəti "Respublika" qəzetinin 19 sentyabr 2018-ci il və 29 sentyabr 2018-ci il tarixli saylarında dərc olunmuş tender elanında zərflər 20 noyabr 2018-ci il saat 11:00-da açılacaq. Tender təklifi və bank zəmanəti 19 noyabr 2018-ci il saat 17:00-a kimi qəbul olunur

**Tender Komissiyası.**

TƏKRAR

Azərbaycan Respublikası Dövlət Reklam Agentliyinin Gəncə Regional Reklam İdarəsi nəqliyyat vasitələrinin satın alınmasına dair

AÇIQ TENDERƏ DƏVƏT EDİR

(İkinci Elan)

Tender 2 lot üzrə keçirilir.

Lot 1 - 2 ədəd sedan tipli nəqliyyat vasitəsinin satın alınması.

Lot 2 - 5 ədəd minivan tipli nəqliyyat vasitəsinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat zərfdə, yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıda göstərilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Gəncə şəhəri, H.Əliyev meydanı, Gəncə Şəhər İcra Hakimiyyəti, İnzibati bina otaq 112 (Əlaqələndirici şəxs: Məmmədov Aqşin Şirvani oğlu, telefon: ((022) 256-39-28) ünvanından ala bilərlər.

İştirak haqqı hər bir lot üçün 200 (iki yüz) manat təşkil edir.

Gəncə Regional Reklam İdarəsi
VÖEN: 2304077651
H/h: AZ24AİİB38060019440343346127
Bank: "Kapital Bank" ASC-nin Gəncə şəhər filialı
VÖEN: 9900003611
Kod: 200275
Müxbir hesab:
AZ37NABZ01350100000000001944
SWİFT: AİİBAZ2X

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- Tenderdə iştirak etmək üçün yazılı müraciət;
- İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
- Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 bank günü qüvvədə olmalıdır);
- Tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü qüvvədə olmalıdır);
- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;
- İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatı;
- Müqaviləni yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 29 noyabr 2018-ci il, saat 17.00-dək, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 10 dekabr 2018-ci il, saat 17.00-dək, Gəncə şəhəri, H.Əliyev meydanı, Gəncə Şəhər İcra Hakimiyyəti, İnzibati bina otaq 112 ünvanına təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təklifi zərfləri 11 dekabr 2018-ci il tarixində saat 11.00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

TENDER KOMİSSİYASI.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi avtomobil yolunun kənarında (Qanlı gölün şimal hissəsi) yerləşən 15,4 ha torpaq sahəsində çoxmənzilli binaların tikintisi ilə əlaqədar satınalmalar üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 7 lot üzrə keçirilir:

Lot-1 - 1 nömrəli 9 mərtəbəli 2 bloklu, 2 nömrəli 9 mərtəbəli 2 bloklu və 3 nömrəli 12 mərtəbəli 1 bloklu yaşayış binalarının tikintisi;

Lot-2 - 4 nömrəli 9 mərtəbəli 2 bloklu, 5 nömrəli 9 mərtəbəli 2 bloklu və 6 nömrəli 12 mərtəbəli 1 bloklu yaşayış binalarının tikintisi;

Lot-3 - 17, 18, 19 və 20 nömrəli 12 mərtəbəli 1 bloklu yaşayış binalarının və 100 yerlik uşaq bağçasının tikintisi;

Lot-4 - 1200 şagird yerlik tam orta məktəb binasının tikintisi və avadanlıqlarla təchiz edilməsi;

Lot-5 - 21 nömrəli 12 mərtəbəli 1 bloklu, 22 nömrəli 9 mərtəbəli 2 bloklu və 23 nömrəli 9 mərtəbəli 2 bloklu yaşayış binalarının tikintisi;

Lot-6 - 24 nömrəli 12 mərtəbəli 1 bloklu, 25 nömrəli 9 mərtəbəli 2 bloklu və 26 nömrəli 9 mərtəbəli 2 bloklu yaşayış binalarının tikintisi;

Lot-7 - Ərazinin şaquli planlaşdırılması, yollar, səkilər və velosiped yolları.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, satınalma müqaviləsinin vaxtında yerinə yetirilməsi, podratçının ixtisas göstəricilərinin aidiyyəti işlər üzrə uyğunluğu, analoji işlər üzrə təcrübəsi, texniki, maliyyə və kadr imkanları.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət edib qeydiyyata alındıqdan sonra aşağıdakı hesaba hər bir lot üzrə qeyd olunan məbləğdə iştirak haqqı ödəməklə Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85Z ünvanından (əlaqələndirici şəxs: Vəliyev Zahid Musa oğlu, telefon: (+99412) 594-54-01 daxili 238) ala bilərlər.

VÖEN: 1701953921
"Kapital Bank" ASC-nin Mərkəzi filialı
Filialın kodu: 200026
VÖEN: 9900003611
SWİFT kod: AİİBAZ2X
M/h AZ37NABZ01350100000000001944
"MİDA" MMC
Hesab:
AZ18AİİB38030019440029636102
Lot-1 - 900 manat;
Lot-2 - 900 manat;
Lot-3 - 900 manat;
Lot-4 - 900 manat;
Lot-5 - 900 manat;
Lot-6 - 900 manat;
Lot-7 - 800 manat.

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Podratçılar iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

1. Tenderdə iştirak etmək üçün ərizə;
2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
3. Tender təklifi (tender təklifi zərflərinin açıldığı gündən sonra azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);
4. Tender təklifinin ümumi qiymətinin 2 (iki) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
5. İddiaçı haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- İddiaçı inşa etdiyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;
- İddiaçının son 1 (bir) ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- İddiaçının son 3 (üç) ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İddiaçının ixtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);
- Digər sənədlər: tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər.

İddiaçılar 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 2018-ci il 13 dekabr tarixinə kimi Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə) 2018-ci il 20 dekabr saat 17.00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri 2018-ci il 21 dekabr tarixində saat 15.00-da "MİDA" MMC-də açılacaqdır.

Tender Komissiyası.




## Şirvan Apelyasiya Məhkəməsi

Şirvan Apelyasiya Məhkəməsi tərəfindən Minik avtomobilinin satınalınması məqsədilə keçirilmiş Açıq tender prosedurunun nəticələri haqqında müsabiqə komissiyasının 05 noyabr 2018-ci il tarixli yekun protokoluna əsasən "Abşeron Toyota Center" MMC qalib elan edilmiş və həmin təşkilatla 08 noyabr 2018-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

---

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 31.05.2018-ci il tarixində elan edilmiş İstismar işləri üçün tələb olunan materialların satınalınması üzrə açıq tender prosedurunun qalibi "Rabitə Sənaye" MMC müəyyən edilmişdir. "Bakı Telefon Rabitəsi" MMC "Rabitə Sənaye" MMC arasında 30 oktyabr 2018-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

---

TƏKRAR

## Yeni server və UPS otağının qurulması üçün avadanlıqların, soyutma sisteminin və təhlükəsizlik qurğularının alınması və qurulması iş və xidmətlərinin satınalınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Lot 1 - Yeni server və UPS otağının qurulması üçün avadanlıqların, soyutma sisteminin və təhlükəsizlik qurğularının alınması və qurulması iş və xidmətləri

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanından (Əlaqələndirici şəxs: Mahmudov Tural M.Cəmil oğlu, telefon: 404-41-20 (daxili 2185)) ala bilərlər.

**İştirak haqqı:**
**Lot 1 - 500 manat**
*Bank adı: Dövlət Xəzinədarlığı Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*S.W.İ.F.T. BİK: CTREAZ 22*
*Bakı Nəqliyyat Agentliyi*
*Hesab № AZ88CTRE00000000000008147701*
*VÖEN: 1503112971*
*Büdcə təsnifatının kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra 60 bank günü ərzində qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqandan arayış;*
*-İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-İddiaçılar müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank təminatı istisna olmaqla) 30.11.2018-ci il saat 12:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 11.12.2018-ci il saat 12:00-a qədər Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında yerləşən Bakı Nəqliyyat Agentliyinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 12.12.2018-ci il tarixdə saat 12:00-da Bakı şəhəri, Ziya Bünyadov 111 ünvanında yerləşən Bakı Nəqliyyat Agentliyində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Şəki Rayon Mərkəzi Xəstəxanası aşağıdakı malların satınalınması məqsədilə

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** "Mətbəə xərcləri" maddəsi üzrə çap məhsulları

**2.** Əyani vəsaitlər

Kotirovka sorğusunda iştirak etmək istəyənlər sənədləri 17 noyabr 2018-ci il saat 16:00-dək Şəki şəhər Z.Əliyeva 177 Şəki RMX-na təqdim etməlidirlər.

**Əlaqə telefonu:** *055 605 05 99*

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Bakı şəhəri, Yasamal rayonu, Xarici dairəvi yolu "8" ünvanında inşa olunan yaşayış kompleksinin sayğaclaşdırılması ilə əlaqədar keçirilmiş açıq tenderin nəticələrinə əsasən Lot-1 üzrə "Bakelektro" ASC, Lot-2 üzrə "Rəvan-2011" MMC və Lot-3 üzrə "BAKQAZ" MMC qalib müəyyən edilmiş və müvafiq satınalma müqavilələri bağlanmışdır.

**"MİDA" MMC.**

---

## Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin tabeliyində "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin bildirişi

08 noyabr 2018-ci il tarixində "Respublika" qəzetində yerləşdirilmiş "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə dəftərxana mallarının, təsərrüfat mallarının, mətbəə və çap mallarının, eləcə də Cəmiyyətin balansında olan printerlərə zəruri texniki avadanlıqların (kartic, ehtiyat hissələri və sair) satın alınması açıq tenderi üzrə təkrar tender elanının mətnində iştirak haqlarının məbləğlərinin lotlar üzrə aşağıdakı kimi nəzərə alınması xahiş olunur.

**Tenderdə iştirak haqqı:**
**Lot 1 üzrə: 300 (üç yüz) manat**
**Lot 2 üzrə: 300 (üç yüz) manat**
**Lot 3 üzrə: 400 (dörd yüz) manat**
**Lot 4 üzrə: 500 (beş yüz) manat**

**Tender Komissiyası.**

---

Xaçmaz rayon Xudat şəhər Osman Mirzəyev küçəsi ev 19 ünvanında yaşamış mərhum Xantəmirova Sayad Ağatəmir qızının adına verilmiş JN-026F kod-30202004 nömrəli torpağın şəhadətnaməsi və evin 436 nömrəli qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 30 may 1998-ci il tarixli 10 nömrəli qərarı ilə Zövlə kənd sakini Rzayeva Nənəqiz Murad qızına verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 273; KOD 80220028) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon aqrar islahat komissiyasının 18 iyun 1998-ci il tarixli 11 nömrəli qərarı ilə Türkəncil kənd sakini Babayev Hacırza Pani oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 71; KOD 80211038) itdiyi üçün etibarsız sayılır.

Qusar rayonu Qayakənd kənd sakini Əhmədova Seyran Nurəhməd qızının adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə (JN: 092 B, kod: 30101018) itdiyi üçün etibarsız sayılır.

Samux Rayon İcra Hakimiyyəti Samux şəhər, Kolayır prospektində yerləşən, Qarabağ müharibəsi əlilləri və şəhid ailələri yaşayan 4 mərtəbəli, 36 mənzilli 1 (bir) ədəd yaşayış binasının dam örtüyünün təmiri işlərinin satınalınması barədə təkliflər sorğusu elan edir. Təkliflər 16.11.2018-ci il tarixdə saat 17:00-dək qəbul olunur. Təklif sənədləri 19.11.2018-ci il tarixdə saat 11:00-da açılacaqdır. Əlaqələndirici şəxs: Tahir Qarayev. Tel.: 022 275-10-06. Ünvan: Samux şəhəri, Heydər Əliyev pr. 70

Dövlət Miqrasiya Xidməti tərəfindən 2018-ci ildə Türkiyə vətəndaşı Sevgin Muhammed Saitə verilmiş Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

AzMİU-nun nəzdindəki İnşaat Kolleci tərəfindən Xəlilli Farid Ariz oğluna verilmiş 04/1363 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

AzMİU tərəfindən Mirzəbəyli Yüksəl Musa oğluna verilmiş 16/700158 saylı tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Zülfüqarov Ramil Saleh oğlunun adına Bakı şəhəri, Sabunçu rayonu, Ramana qəsəbəsi, Südçülük savxozu ərazisində 0,025 ha torpaq sahəsinin çıxarışı itdiyi üçün etibarsız sayılır.

DƏDRX-nin Xaçmaz Ərazi İdarəsi tərəfindən Ağasıyeva Solmaz Əbilhəsən qızının adına yaşayış evinə verilmiş çıxarış (rey.-304013025175) itdiyi üçün etibarsız sayılır.

DRXK-nin Şabran rayon şöbəsi Taxtalar kənd sakini mərhum Nuriyev Ziyarəddin Güləddin oğlunun adına verilmiş JN:104 (kod-30405038) saylı torpağa mülkiyyət hüququna dair Dövlət aktı itdiyi üçün etibarsız sayılır.

---

## Naftalan Şəhər İcra Hakimiyyəti yeni 200 yerlik körpələr evi-uşaq bağçasının tikintisi ilə əlaqədar

TƏKRAR

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) Lot üzrə keçirilir:**
**Lot-1.** 200 yerlik körpələr evi-uşaq bağçasının tikintisi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər Lot-1 üzrə 100 (yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Naftalan şəhəri, Ş.Qurbanov küçəsi - 01 ünvanından (əlaqələndirici şəxs: Qasımov Səbuhi Nizami oğlu, tel: 02235-2-23-33) ala bilərlər.

*Təşkilat: Naftalan Şəhər İcra Hakimiyyəti*
*Hesab: AZ56AİİB32051019445600201156*
*VÖEN: 2800004291*
*Bank: Kapital Bankın Naftalan şəhər filialı*
*Kodu: 200565*
*VÖEN: 9900003611*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.BİK Aİİ BAZ 2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi ( zərflərin açıldığı tarixdən ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır;*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank zəmanəti (Zərflərin açıldığı tarixdən ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanı tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Görülən işlər təqdim olunmuş qrafikə əsasən yerinə yetirilməlidir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tendüerdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri 4 dekabr 2018-ci il saat 17:00-dək möhürlənmiş ikiqat zərfdə tender komissiyasına (ünvan: Ş.Qurbanov küçəsi 01; Naftalan Şəhər İcra Hakimiyyətinin inzibati binası) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərf açılmadan geri qaytarılacaqdır.

Tender təklifi və bank zəmanəti 11 dekabr 2018-ci il saat 17:00-a kimi təqdim olunmalıdır.

İddiaçının təklifləri 12 dekabr 2018-ci il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçının səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

TƏKRAR

## Bakı şəhər Heyvanat parkı 2019-cu il üçün tələb olunan kənd təsərrüfatı məhsullarının satınalınması ilə əlaqədar

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1.** Heyvanların yemlənməsilə əlaqədar kənd təsərrüfatı məhsulları: balıq, ət, at, ağ siçovul, siçan, dənli bitkilər, meyvə, tərəvəz, su donuzlarının satınalınması

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən Lot üzrə tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər. Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin yerinə yetirilməsi təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Nərimanov rayonu, Bakıxanov küçəsi, 39 ünvanından (Əlaqələndirici şəxs: Hüseynov Azər Rəhim oğlu, telefonlar: 440-10-96, 441-04-54, 050-214-93-34) ala bilərlər.

**Lot-1-200 (iki yüz) manat**
*Təşkilat: Bakı şəhər Heyvanat Parkı*
*VÖEN: 1500217391*
*Hesab: Az44AİİB33070019441100248111*
*Bank: "Kapital Bank"ın 1 saylı Nəsimi filialı*
*VÖEN: 990000681*
*Kodu: 200112*
*Müxbir hesabı:*
*AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T BİK: AİİBAZ2X*
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü qüvvədə olmalıdır); -tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında arayışı;*
*-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 7 dekabr 2018-ci il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 17 dekabr 2018-ci il saat 17:00-a qədər Bakı şəhəri, Heyvanat Parkına (ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Bakıxanov küçəsi, 39 ünvanına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 18 dekabr 2018-ci il tarixdə saat 16:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və mühasibat fakültəsinin dekanlığı fakültə dekanı Gəray Musayevə, atası**
**CÜMŞÜD MUSAYEVİN**
**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.**

**Azərbaycan Milli Elmlər Akademiyası Botanika İnstitutunun kollektivi və "Bitki ehtiyatları" şöbəsi AMEA Botanika İnstitutunun aparıcı elmi işçisi, biologiya üzrə fəlsəfə doktoru, dosent Ağa Şixiyevə, bacısı**
**NƏNƏXANIM ŞİXİ qızı HƏSƏNOVANIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru və kollektivi Xalq artisti**
**AMALYA PƏNAHOVANIN**
**vəfatından kədərləndiklərini bildirir, mərhumun oğlu İlqar və qızı Aynur Muxtarovlara dərin hüznlə başsağlığı verirlər.**

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecinin rəhbərliyi və kollektivi Budaqov Ramiz Mürsəl oğluna, anası**
**HƏBİBƏ xanım BUDAQOVANIN**
**vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

---

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
İlham PƏNAHOV

● Çapa imzalanmışdır
08.11.2018